# MƏHKƏMƏ MÜSABİQƏSİNDƏ HAKİMLİK BƏLƏDÇİSİ

MEHRAN ƏMİRLİ

# MƏHKƏMƏ MÜSABİQƏSİNDƏ HAKİMLİK MÜSABİQƏSİ

Mehran Əmirli

**© 2023, Mehran Əmirli.**

Bu əsərin şəxsi, qeyri-kommersiya məqsədləri üçün istifadəsinə, habelə təhsil məqsədləri üçün çapına və çoxaldılmasına icazə verilir.

Müəllifin yazılı razılığı olmadan bu əsərin kommersiya məqsədləri üçün hər hansı istifadəsi, o cümlədən kommersiya çapı, çoxaldılması və ya yayılması qəti qadağandır.

Yayım tarixi: 14 noyabr 2023 • Yayım ünvanı: https://lawblog.az/books

# İçindəkilər


Giriş . . . . . . . . . . 1

1. Müsabiqə işi . . . . . . . . . . 3

2. Yazılı təqdimatlar . . . . . . . . . . 4
   2.1. Məqsəd . . . . . . . . . . 4
   2.2. Hakimin hazırlığı və təhlili . . . . . . . . . . 5
   2.3. Qiymətləndirmə meyarları . . . . . . . . . . 6
   2.4. Qiymətləndirmə aralığı . . . . . . . . . . 13
   2.5. Rəy və təkliflər . . . . . . . . . . 14

3. Şifahi raundlarda suallar və kommunikasiya . . . . . . . . 16
   3.1. Şifahilər haqqında qısaca . . . . . . . . . . 16
   3.2. Sualların əhəmiyyəti . . . . . . . . . . 16
   3.3. Sualların bəzi növləri . . . . . . . . . . 17
   3.4. Effektiv sual soruşma . . . . . . . . . . 19
   3.5. Aktiv dinləmə . . . . . . . . . . 22
   3.6. Qeyri-şifahi kommunikasiya . . . . . . . . . . 24

4. Şifahi raundlarda qiymətləndirmə . . . . . . . . . . 25
   4.1. Qiymətləndirməyə ümumi baxış . . . . . . . . . . 25
   4.2. Qiymətləndirmə meyarları . . . . . . . . . . 26
   4.3. Qiymətləndirmə aralığı . . . . . . . . . . 32
   4.4. Rəy və təkliflər . . . . . . . . . . 36

5. Peşəkar etika . . . . . . . . . . 38
   5.1. Peşəkar etika haqqında . . . . . . . . . . 38
   5.2. Hakimlikdə tərəfsizlik . . . . . . . . . . 38
   5.3. Məxfilik . . . . . . . . . . 39
   5.4. Peşəkar davranış . . . . . . . . . . 39

# GİRİŞ

Bu bələdçi məhkəmə müsabiqələrində hakim olmaq istəyən hüquqşünasları ətraflı məlumatlandırmaq, istifadə edə biləcəkləri praktiki tövsiyələr vermək üçün hazırlanmışdır. Vəsaitdən hakimlərin nəzər nöqtəsini öyrənmək istəyən tələbələr də faydalana bilərlər.

Məhkəmə müsabiqələri ilə bağlı təcrübəm 2016-cı ildə Topçubaşov Məhkəmə Müsabiqəsində baş koordinatorluqla başlayıb. 2017-ci ildə *Jessup* beynəlxalq məhkəmə müsabiqəsində iştirak etdikdən sonra bu müsabiqənin həm müxtəlif milli raundlarında (ABŞ, Gürcüstan, Türkiyə), həm də Vaşinqtonda keçirilən beynəlxalq raundlarında hakim kimi iştirak etmişəm. Son illərdə müsabiqənin yerli seçimlərini də təşkil etmişəm. Eyni zamanda Topçubaşov Məhkəmə Müsabiqəsində hakimlik təcrübəm olub. Bu bələdçi də şəxsi təcrübəmdən nümunələr əsasında hazırladığım praktiki tövsiyələr toplusudur.

Hər məhkəmə prosesinin təqlidi məhkəmə müsabiqəsi deyil. "Məhkəmə müsabiqəsi" ingilis dilindəki "*moot court competition*" ifadəsinin qarşılığıdır. Burada məsələ faktların müəyyən edilməsi deyil, hüququn müəyyən edilməsi və tətbiqidir. Qısaca, məhkəmə müsabiqəsi yuxarı instansiya məhkəməsi formatındadır (məsələn, Ali Məhkəmə). Məhkəmə müsabiqəsinə paralel anlayış olan "*mock trial*"da isə format aşağı instansiya məhkəməsini nümunə götürür. Burada daha çox prosessual məqamlar, faktlar, şahid, təqsirləndirilən şəxs kimi rol alma, onları dindirmə, teatral canfəşanlıq kimi xüsuslar önə çıxır.

Məhkəmə müsabiqələri hüquq tələbələri üçün hüquqi müdafiə və vəkillik bacarıqlarını inkişaf etdirmək və pratiki məhkəmə təcrübəsi əldə etmək üçün

mühüm platforma rolunu oynayır. Tələbələr komanda kimi bir neçə ay ərzində müsabiqə işini araşdıraraq təqdim olunmuş hüquqi suallarla bağlı yazılı təqdimatlarını hazırlayır, araşdırma və hüquqi təhlil əsasında formalaşdırdıqları arqumentlərini şifahi raundlarda hakimlər qarşısında müdafiə edirlər.

Bələdçi beş hissədən ibarətdir. İlk hissədə qısaca müsabiqə işinin mahiyyətindən danışılır.

İkinci hissə yazılı təqdimatları nəzərdən keçirir, onların məqsədini, strukturunu, qiymətləndirmə meyarlarını və prosesini izah edir. Yazılarda irəli sürülən arqumentlərin təhlili, qiymətləndirmə aparılması və iştirakçıların özünü inkişaf etdirməsi üçün konstruktiv rəy və təkliflər verməklə bağlı tövsiyələr verilir.

Üçüncü hissədə şifahi raundlar zamanı sualların və kommunikasiyanın əhəmiyyətinə toxunulur. Hakimlərin verə biləcəyi müxtəlif sual növlərindən, effektiv sual vermə üsullarından və aktiv dinləmə bacarıqlarından ətraflı bəhs edilir. İştirakı təşviq edən və pozitiv məhkəmə atmosferi yaratmaqda mühüm rol oynayan qeyri-şifahi kommunikasiya barədə də məlumat verilir.

Dördüncü hissənin mövzusu şifahi raundların qiymətləndirilməsidir. Burada qiymətləndirmə prosesindən, meyarlarından və balların verilməsindən söhbət açılır. O cümlədən, iştirakçılara müdafiə bacarıqlarını təkmilləşdirməyə kömək etmək üçün ətraflı rəy və təkliflər verməklə bağlı tövsiyələr də burada yer alır.

Beşinci və sonuncu hissədə peşəkar etika və davranışın vacibliyinə toxunulur. Ədalətli müsabiqə mühitini təmin etmək üçün hakimlərin tərəfsizlik, məxfilik və peşəkarlığa riayət etməsi ilə bağlı qeydlər yer alır.

Hüquq tələbələrimizin yerli və beynəlxalq məhkəmə müsabiqələrində iştirakı artmaqdadır. Onların müsabiqələrdən ən yaxşı şəkildə faydalanmasına hüquqşünasların keyfiyyətli hakimliklə dəstək olmaları olduqca mühümdür. Hüquq tələbələrinin bu müsabiqələrdən yaxşı təcrübə əldə etməsinin, hüquqi yazı, təhlil, müdafiə bacarıqlarını inkişaf etdirməsinin daha yaxşı gələcək vəd etdiyinə inanır, belə bir mühüm məqsəd üçün bu vəsaitin hüquq ictimaiyyətimizə faydalı olacağına ümid edirəm.

# 1. MÜSABİQƏ İŞİ

Məhkəmə müsabiqəsi müsabiqə işi əsasında aparılır. Müsabiqə işində iki tərəf arasındakı şərti bir mübahisə təsvir olunur. Bütün zəruri faktlar və sual doğuran hüquqi məsələlər burada öz əksini tapır.

İştirakçıların həm yazılı, həm də şifahi təqdimatlardakı arqumentasiyası müsabiqə işinin sonunda verilən məhkəmədən xahişlər, yaxud məhkəmə qarşısındakı sullar əsasında qurulur. Belə sualların sayı, adətən, dörd olur. Onlar özü-özlüyündə müstəqil araşdırılmalı olan hüquqi məsələlər olur və təqdimatların da əsas başlıqları onlar əsasında formalaşır.

İşdə faktlar sıralanır, tərəflərin bəyanatları, iddiaları göstərilir. İşi hərtərəfli araşdırmış və başa düşmüş komandalar güclü hüquqi arqumentlər gətirir və bunun üçün faktlardan səmərəli istifadə edir. Hakim iştirakçıların faktlardan istifadə edərkən təhrifə yol verməməsinə diqqət etməlidir.

İştirakçıları yaxşı qiymətləndirmək üçün hakimin də müsabiqə işi barədə anlayışının olması lazımdır. İşdəki tərəflər, mübahisə olunan hüquqi məsələlər və konkret faktlarla yaxından tanış olmaq hakim üçün olduqca vacibdir.

# 2. YAZILI TƏQDİMATLAR

## 2.1. Məqsəd

Yazılı təqdimatlar memorial, memorandum, ərizə kimi müxtəlif adlarla adlandırılır. Hər iştirakçı komanda mövqelər üzrə əsalandırmalarını yazılılarda əks etdirir (məsələn, iddiaçı və cavabdeh mövqeləri üzrə). Yazılılar vasitəsilə iştirakçı komanda hüquqi məsələlər haqqında anlayışını, araşdırma, təhlil və inandırıcı yazı bacarığını nümayiş etdirir.

Yazı, adətən, giriş, faktların xülasəsi, sualların siyahısı, arqumentlərin xülasəsi, arqumentlər və tələblər kimi bir neçə fərqli bölmədən ibarət olur. Bölmələr müsabiqənin tələblərindən asılı olaraq dəyişə bilər. Bu bölmələr arasında ən mühüm və həcmcə böyük hissə arqumentlər bölməsi olur. Arqumentlər bölməsində işin suallarından asılı olaraq bir neçə başlıq və alt-başlıqlar altında fərqli hissələr olur.

İştirakçılar yazılı təqdimatda aşağıdakı məqsədlərə nail olmağa çalışmalıdır:

- **Hüquqi sualların və ya məsələlərin aydın təsbiti**. Yazılıda işin hüquqi məsələləri fərqləndirilməli, iştirakçının aydın strukturdurda bu məsələləri necə təhlil etməsi görülməlidir.
- **İnandırıcı hüquqi arqumentlərin irəli sürülməsi**. İştirakçı ətraflı araşdırma, təhlil və məntiqli struktur vasitəsilə işi və müvafiq hüququ başa düşdüyünü göstərərək arqumentlərin inandırıcılığını artırmağa çalışır.
- **Əlaqəli hüquq mənbələrinə istinad**. İştirakçının arqumentlərini dəstəkləmək və hərtərəfli araşdırma bacarıqlarını nümayiş etdirmək üçün

yazılılar qanunlar, qərarlar, akademik iş və məqalələr kimi müvafiq hüquq mənbələrinə istinad etməlidir.

- **Əks-arqumentlər**. Yaxşı işlənmiş yazılı pontensial əks-arqumentləri təxmin etməli və iştirakçının tənqidi düşünə bilməsini və çətinliklərə uyğunlaşa bilməsini nümayiş etdirməklə həmin əks-arqumentlərə effektiv cavab verməlidir. Əks-arqumentlərə alternativ arqumentlər də deyilə bilər.

  Məsələn, ilk arqument belədir: "*məhkəmənin iş üzrə yurisdiksiyası yoxdur*"; bunun ardınca isə alternativ arqument verilir: "*məhkəmənin iş üzrə yurisdikası olsa belə, cavabdehin hərəkəti [...] qaydasını pozmur.*" Burada cavabdeh yurisdiksiyanı mübahisələndirməklə kifayətlənmir, yurisdiksiya təsbit olunacağı hal üçün alternativ arqument gətirir.

## 2.2. Hakimin hazırlığı və təhlili

Hakim yazılını keyfiyyətli yoxlamaq üçün özü də lazımi biliklərə sahib olmalı, xüsusən, müsabiqə işindən və tətbiq olunan hüquqdan xəbərdar olmalıdır.

**Faktlar.** Hakim müsabiqə işindən, heç olmasa, işdəki hüquqi məsələlərdən xəbərdar olmalıdır. Aşağıda izah olunan kimi hüquq qaydalarını təsbit etdikdən sonra hakim işin faktlarının necə istifadə olunacağını da təxmin və ya təhlil etməlidir. Hakim müsabiqənin istənilən mərhələsində arqumentasiya üçün iştirakçının faktları necə istifadə etməsini yoxlamağa qadir olmalıdır.

**Hüquqi qayda və prinsiplərin təsbiti.** Yazılılardakı hüquqi arqumentləri qiymətləndirmək üçün hakim müzakirə olunan hüquqi məsələlərə tətbiq olunan hüquqi qayda və prinsipləri özü üçün aydınlaşdırmalıdır. Müsabiqə təşkilatçıları, adətən, işə hüquqi məsələlərin və tərəflərin mümkün arqumentlərinin müzakirə olunduğu məxfi təlimatı hakimlər ilə bölüşür. Hakimlər həmin bələdçi ilə buna nail ola bilirlər. Bələdçinin mövcud olub-olmamasından asılı olamayaraq, arzuolunandır ki, hakim işlə tanış olsun, tətbiq olunacaq hüququ araşdırsın və mümkün arqumentasiya barədə fikrə sahib olsun.

**Hüquqi arqumentasiya.** Hüquqi arqumentləri qiymətləndirərkən hakim iştirakçının hüquqi əsaslandırmadan istifadəsinə, əks-arqumentlərə və inandırıcı

dilə xüsusi diqqət göstərməlidir. Hakim iştirakçının məntiqli hüquqi əsaslandırma edib-etmədiyini, arquementasiyanın necə bir çərçivədə sərgiləndiyini, əks-arqumentlərə adekvat toxunub-toxunmadığını, iddiaları üçün inandırıcı dil tətbiq edib-etmədiyini yoxlamağı bacarmalıdır. İştirakçının istifadə etdiyi dil mövqeyinin gücünü effektiv ifadə etdikdə daha inandırıcı olur.

**Yazılının tənqidi.** Qiymətləndirmə prosesinin bir hissəsi kimi hakim yazıya həm də hüquqi perspektivdən tənqidi yanaşmağı bacarmalıdır. Buna irəli sürülən arqumentlərin keyfiyyətinin qiymətləndirilməsi, arqumentasiyanın hansı sahələrdə təkmilləşdirilə biləcəyinin təsbiti və yazıda hüquqi prinsiplərin istifadəsi ilə bağlı rəy (ing. *feedback*) verilməsi daxildir. Hakim iştirakçıların təhlili təkmilləşdirməyə kömək edəcək mümkün qədər konkret və konstruktiv rəy verməyə çalışmaldır. Əksər müsabiqələr hakimlərdən iş üzrə maddi hüquqi rəy deyil, hüquqi bacarıqlarla bağlı rəy verməyi tələb edir. Məsələn, harada təhlil daha sistemi aparıla bilərdi, harada mənbələrlə əsaslandırma daha da gücləndirilə bilərdi, harada aktların iyerarxiyasına daha diqqətlə yanaşıla bilərdi, harada alternativ arqumentlərə yer verilə bilərdi və s.

**Etika.** Yazılıları yoxlayarkən hakim məxfiliyə və peşəkarlığa riayət etməldir, ona qiymətləndirmə üçün verilmiş yazıları başqaları ilə paylaşmamalıdır. İştirakçının yazı üslubundan onun kimliyini təxmin edərək və ya necəsə yazıya tərəfli baxmaqla qərəzli yanaşmadan uzaq durmaq lazımdır. Hakim müsabiqə prosesinə və iştirakçılara hörmət etməlidir.

## 2.3. Qiymətləndirmə meyarları

Məhkəmə müsabiqələrindəki yazılı təqdimatlar, adətən, hüquq və fakt biliyi, aydın təhlil, inandırıcılıq, araşdırmanın həcmi, yazının təşkili, üslub və qrammatika kimi meyarlar əsasında qiymətləndirilir. Meyarları aşağıda bir-bir izah edək.

### 2.3.1. Hüquq və fakt biliyi

Bu meyar əsasında ümumilikdə arqumentlərin qurulmasında və əsaslandırılmasında sərgilənən hüquq biliyi, təhlildə işin faktlarından istifadə dərəcəsi yoxlanılır. Meyar üzrə qiymətləndirmə edərkən belə suallar qoya bilərsiniz: Yazı müəllifi işdə qoyulan sualların hüquqda yerini başa düşür? Suallara cavab vermək üçün hüquq

qaydaları müəyyən edilir? Bu hüquq qaydalarının tətbiqini istisna edə biləcək qaydalara toxunulur? Tapılan hüquq qaydalarının təhlilində faktlardan effektiv istifadə oluna bilir? Mövqeyi dəstəkləməyən faktlara, zəif nöqtələrə toxunulur?

Qısaca, bu meyar ilə iştirakçının yazılıda əlaqəli hüquq və faktları nə qədər dərin və dəqiq başa düşməsi qiymətləndirilir. Meyar üzrə qiymətə aşağıdakı faktorlar təsir göstərir:

- **Hüquqi məsələlərin başa düşülməsi.** Yuxarı qiymət müsabiqə işindəki hüquqi məsələlərin dərin və ətraflı başa düşülməsini tələb edir. İştirakçı bu məsələlərin nəyə işarə etdiyinə, hansı hüquq institutları ilə əlaqəli olmasına, hansı hüquqi konsepsiyalara toxunduğuna, hansı faktların hansı məsələ üzrə əhəmiyyətli olduğuna diqqət etməlidir.

- **Hüquq qaydalarının tətbiqi.** İştirakçının hüquq qaydalarını yüksək səviyyədə qavraması və tətbiqi daha yaxşı qiymət deməkdir. İştirakçı yalnız hüquq qaydalarını sadalamaqla kifayətlənməməli, hüququ həm də işin suallarına və faktlarına effektiv şəkildə tətbiq etməlidir. Bu qaydaların tətbiqini sual altında qoyan başqa qaydalara, yaxud potensial əks-arqumentlərə toxunmaq da daha yuxarı qiymətləndirmə ilə nəticələnir.

- **Fatklardan istifadə.** Təhlillərində faktları təsirli və səmərəli istifadə edən iştirakçılar daha yüksək qiymətləndirilir. Faktlar dəqiq izah və ya təfsir edilməli, arqumentləri dəstəkləmək üçün hüquqi təhlilə daxil edilməlidir. Arqumentasiyada mövqeyi zəif göstərən, tərəfin əleyhinə görünən faktlara toxunmaq da mühümdür.

- **Hüquqi mövqeyi başa düşmək.** Yuxarı qiymət üçün iştirakçıdan hüquqi mövqeyini aydın başa düşmək və ifadə etmək tələb olunur. İştirakçıdan gözlənilir ki, hüquqi mövqeyin hədəfini, iştirakçıdan nə tələb etdiyini, habelə bunun arqumentasiyaya necə təsir etdiyini başa düşsün. Qısacası, iştirakçı nəyi müdafiə etdiyini bilməlidir.

- **Əhatəlilik**. İştirakçı nə qədər çox əlaqəli hüquq və faktı əhatə edə bilirsə, bir o qədər çox qiymət alır. Bu o deməkdir ki, təhlildə mümkün qədər çox əhəmiyyətli hüquqi məsələ və faktlara toxunulmalıdır.

### 2.3.2. Aydın təhlil

Hakim yazıdakı hüquqi təhlilin keyfiyyətini qiymətləndirir. Bunun üçün iştirakçının hüquqi məsələləri və qarşıya qoyulan sualları necə qavraması, arqumenti necə irəli sürməsi, tətbiq olunacaq qaydaların necə başa düşülməsi, əlaqəli qaydaların faktlara necə tətbiq edilməsi, irəli sürülmüş arqumentlərin necə əsaslandırılması yoxlanılır. Yaxşı təhlilin əsas göstəricisi həm də onun inandırıcılığıdır. Hakim iştirakçının arqumentlərinin gücünü, əks-arqumentlərə toxunma bacarığını və ümumiyyətlə oxucu üzərindəki təəssüratını nəzərə almalıdır. Sadəcə yazmaq xətrinə deyil, yazıya ciddi yanaşmış iştirakçı təhlilində daha əhatəli olur, əsaslandırmasında boşluq saxlamamağa çalışır, mövqeyini dəstəkləmək üçün çoxlu mənbələrdən istifadə edir.

Təhlilin qiymətləndirilməsinə təsir edən amillər aşağıdakılardır:

- **Məsələlərin başa düşülməsi və təqdimatı.** İşdəki hüquqi sualların daha əhatəli qavrayışı, aydın fərqləndirilməsi və bu sualların dəqiq təqdimatı daha yuxarı qiymət deməkdir. Bu, adətən, iştirakçının başlıqları necə yazmasında, əsaslandırmalarda başlığın ehtiva etdiyi sualın cavablandırılması strategiyasında özünü göstərir.

  Məsələn, beynəlxalq hüquq müsabiqəsinə aid işdəki dörd məsələdən biri Cavabdehin özünümüdafiə hüququnun olub-olmamasıdır. Ərizəçinin mövqeyindən bu məsələyə uyğun başlıq təxminən belə olur: *Cavabdehin özünümüdafiə hüququna istinadı hüquqaziddir*. Bu başlıq özü-özlüyündə bir sualdır; Başlığın ehtiva etdiyi sual belədir: *Cavabdehin özünümüdafiə hüququna istinadı niyə hüquqaziddir?* Başlıq altında komanda bu sualı cavablandırmaq üçün hansı alt-məsələlərə toxunacağını izah etməli, yol xəritəsi təqdim edib həmin alt-suallara cavab verməlidir. Məsələn, "*Qeyri-dövlət aktorlara qarşı özünümüdafiə hüququ tanınmır*" və "*Güc tətbiqi zəruri və proporsional olmayıb*". Bu suallar da öz növbəsində yeni başlıqlara bölünə bilər. Mühüm olan əsas hüquqi məsələnin başa düşülməsi və sualın strukturlu cavablandırılmasıdır.

- **Arqument quruluşu.** Məntiqi qurulan, hüquq və faktlarla yaxşı dəstəklənən güclü, inandırıcı arqumentlər daha yaxşı qiymətləndirilir. Əks-arqumentləri səriştə ilə ələ almaq bacarığı da qiymətə təsir edir.

- **Hüququn faktlara tətbiqi.** Əlaqəli hüquq qayda və prinsiplərini işin faktlarına düzgün və dəqiq tətbiq etmək bacarığı aydın təhlilin mühüm bir hissəsidir. İştirakçı bunu nə qədər yaxşı edirsə, bir o qədər çox bal alır. Yazıda qoyulan hər başlıq hüquqi sual kimi çıxış edir və başlığın altında mövqeyə müvafiq olaraq bu suala cavab öz əksini tapır.

  Cavab əsaslandırma rolunu oynayır. Əsaslandırmada tətbiq olunan hüquq qaydası və ya qaydaları sıralanır, bu qaydaların açar elementləri izah olunur, müvafiq faktlar qeyd olunur. Ardınca iştirakçı göstərir ki, qaydaların elementləri ilə faktların qarşılaşdırılması onun mövqeyini necə dəstəkləyir. Təsvir məqsədilə bunu proses kimi belə ifadə etmək olar:

  > Qayda: *A və B-nin olması C ilə nəticələnir.*
  >
  > Qaydanın izahı: *Məhkəmə təcrübəsindən (məsələn) görünür ki, A elementi D və E-nin, B elementi F və G-nin mövcud olmasını şərtləndirir.*
  >
  > Faktlar: *İşin hallarındakı filan faktlar D və E, digər faktlar F və G-nin mövcudluğunu sübut edir. Bu da o deməkdir ki, həm B, həm də A elementi qaşılanır.*
  >
  > Nəticə: *Həm A, həm də B qarşılandığına görə C nəticəsi tanınmalıdır.*

- **Arqumentlərin əsaslandırılması.** Arqumentlərin, cavabların yalnız yaxşı strukturlaşdırılması yox, həm də mənalı əsaslandırılması lazımdır. Yəni hər dəlili dəstəkləmək üçün məntiqli əsaslar və yetərli sübut təqdim olunmalıdır. Əsaslandırmalarda boşluq qalmamalıdır (məsələn, mənbə olmadan hansısa qaydanın mövcudluğunu iddia etmək, sadəcə faktları sıralayıb hüquqa istinad etmədən nəticə iddia etmək, hansısa faktın mövcudluğu ehtimalına əsaslanmaq və s.). Əsaslandırma nə qədər yaxşı dəstəklənirsə, qiymət o qədər də çox olur.

- **Ümumi inandırıcılıq.** Təhlilin ümumi inandırıcılığı da qiymətləndirmədə rol oynayır. İştirakçı hüquq, faktlar və arqumentləri oxucunu onun mövqeyinə inandıracaq şəkildə nəql edə bilməlidir.

### 2.3.3. Araşdırma həcmi və istifadəsi

Yaxşı araşdırma edilmiş yazılı bir neçə mənbə ilə kifayətlənmir, əksər əsas və köməkçi mənbələrdən də istifadə edir, mənbələr arasında iyerarxiya aydın olur. Gətirilən arqumentləri dəstəkləmək üçün mənbələrdən istifadənin həcmi artdıqca yazının keyfiyyəti də artır. Bu meyar üzrə qiymətləndirməyə təsir göstərən faktorları nəzərdən keçirək:

- **Keyfiyyət.** Əsaslandırmada qanunlar, məhkəmə qərarları, akademik nəşrlərə istinad daha yuxarı qiymətləndirmə üçün əsasdır. Hansısa qaydanın və ya iddianın mənbəsiz, yaxud zəif mənbələrə istinadla verilməsi onun dəyərini aşağı salır. Məsələn, hansısa məsələnin həlli üçün bir qayda təqdim olunur, lakin bu qaydanın mənbəyi kimi qanunlar kimi əsas mənbələrə deyil, akademik nəşrlər kimi köməkçi mənbələrə istinad olunur.

- **Kəmiyyət.** Əsaslandırmanı dəstəkləmək üçün istifadə olunan mənbələrin çoxluğu da qiymətləndirməyə təsir edir. Lakin kəmiyyət və keyfiyyət arasında balans qorunmalıdır. Mənbələr etibarlı və əlaqəli deyilsə, *çox* heç də daha *yaxşı* demək deyil.

- **Əlaqəlilik və istifadə.** Bəhs olunan hüquqi məsələlərlə mənbələrin əlaqəsi və təhlildə onlardan nə qədər yaxşı istifadə olunması qiymətə təsir göstərir. Arqumentlərini qurmaq və əsaslandırmaq üçün mənbələri yerində nəzərə alıb tətbiq edən iştirakçı daha yaxşı qiymət alır.

- **İyerarxiya.** Mənbələrin iyerarxiyasından, yəni əsas mənbələrin köməkçi mənbələrdən, mütləq mənbələrin "yumşaq" mənbələrdən üstün olmasından xəbərdar olmaq qiyməti artıran faktordur. İştirakçılar hansı mənbələrin hüquqi arqumentasiyada daha qüvvətli olmasını başa düşməli, bunu göstərə bilməlidirlər.

- **Zidd mövqelər.** Məhkəmə müsabiqələrində olduqca mübahisəli məsələlər olur deyə bir-birinə əks olan mənbələrin, habelə bir mənbə ilə bağlı bir-biri ilə ziddiyyət təşkil edən xüsusların ortaya çıxması normaldır. Yaxşı iştirakçı təkcə özünə sərf edən hissələrə toxunmaqla kifayətlənməməli, mövqeyinin əksinə olan nöqtələri də təhlil və təkzib etməyi, buna baxmayaraq öz mövqeyini müdafiə etməyi bacarmalıdır. Bu iştirakçının mövzunu əhatəli anladığını və arqumentasiyaya strateji yanaşa bilməsini göstərir.

### 2.3.4. Yazının təşkili

Yazıda yaxşı təşkilatçılıq arqumentasiyanın axıcılığını və məntiqi təqdimatını təmin etmək üçün əhəmiyyətlidir. Hakim bölmələrdə fikirlərin aydın və əlaqəli şəkildə davam etməsini, hər bölmənin əvvəlki bölmə üzərindən inkişaf etdirilməsini və yekunda inandırıcı nəticəyə istiqamətlənməni qiymətləndirməlidir. Diqqət edilməlidir ki, iştirakçı hüquqi təhlilini məntiqi ardıcıllıqla, hər məsələyə ayrıca toxunmaqla və əsas arqumenti hissələrinə bölüb strukturlaşdırmaqla apara bilirmi?

Bu meyar üzrə qiymətləndirməyə təsir edən faktorlara baxaq:

- **Məntiqi struktur və axıcılıq.** İştirakçı arqumentləri məntiqi olaraq strukturlaşdırmalı, bir məsələdən digər məsələyə ağla batan və asan izlənə bilən yolla irəliləməlidir. Giriş, gövdə və nəticə fərqləri hiss olunmalıdır. Aydın və məntiqi struktur oxucunun yazını anlamasına imkan yaradır, yazının daha yaxşı qiymətləndirilməsinə səbəb olur.

- **Təqdimatın aydınlığı.** İştirakçı arqumentlərini və gətirdiyi dəlilləri aydın təqdim etməlidir. Cümlələr aydın dildə və əlaqəli şəkildə təqdim olunma-lıdır. Hakimi çaşdıran, mövqeyi kompromisə uğradan kənaraçıxmalardan uzaq durmaq lazımdır.

- **Bölmələrdən və alt-başlıqlardan istifadə.** Kompleks arqumenti hissələrə bölüb alt-başlıqlardan istifadə etmək həmin arqumentin başa düşülməsini və izlənilməsini asanlaşdırır. Bu həm də oxucuya imkan yaradır ki, arqumentin ayrıca bir bölməsinə asanlıqla qayıda bilsin.

- **Keçidlər.** Fərqli dəlillər və bölmələr arasında rahat keçidlər arqumentin axıcılığını artırır və iştirakçının düşüncə istiqamətini izləməyi mümkün edir. Bu məqsədlə bağlayıcılardan, modal sözlərdən, sıralamalardan istifadə oluna bilər. Qısacası, paraqraflar (abzaslar) arasında məntiqli keçidlər təmin olunmalıdır.

- **Hər məsələyə ayrı toxunmaq.** Yazıda hər xüsusi məsələyə ayrıca və diqqətlə münasibət bildirilməlidir. Bir neçə məsələyə bir dəfədə, bir başlıqda,

bir abzasda toxunmaq oxucunu çaşdırır və arqumenti izləməyi çətinləşdirir. Hər başlığın altında məhz həmin başlığın ehtiva etdiyi suala cavab verilməlidir, yeni cavabsız suallar qoyulmamalıdır.

### 2.3.5. Üslub, qrammatik və istinadlar

Bu meyara ümumilikdə səliqə meyarı kimi də baxa bilərik. Yazıda rəsmi üslubun qorunması, qrammatik qaydalara riayət olunması, istinadların səliqə ilə verilməsi bu meyar üzrə qiymətləndirmədə nəzərə alınır. İstinadlar elə verilməlidir ki, hakim istinad olunan mənbəni tapıb yoxlaya bilsin. Meyarla bağlı faktorlar:

- **Rəsmi dil.** Yazıda hüquqi kontekstə uyğun olan rəsmi üslub və aydın ifadələr işlədilməlidir. İştirakçı vulqarizmdən, jarqondan və ya həddən artıq mürəkkəb dildən uzaq durmalıdır. İştirakçı arqumentlərini effektiv şəkildə çatdıra bilən qısa və dəqiq dildən istifadə etdikcə daha yaxşı qiymətləndirilir.

- **Düzgün qrammatika və ifadələr.** İştirakçı qrammatik qaydalara riayət etməli və yazının söz səhvlərindən təmizliyini təmin etməlidir. Belə səhvlər arqumentlərin mahiyyətindən diqqəti yayındırıb daha az qiymətə səbəb ola bilər.

- **Sistemli və ardıcıl istinad üslubu.** Yazı boyu vahid qaydaya riayət edən istinad üslubundan istifadə olunmalıdır. İstinadlar düzgün formada verilməli, müsabiqə üzrə tələb olunan istinad sisteminə uyğun yazılmalıdır. Bir mənbə tipinə (məsələn, məqalə) gah bir, gah da başqa formada istinad vermək iştirakçının diqqətsizliyini göstərir.

- **İstinadların dəqiqliyi.** İstinadlar mənbələri dəqiq əks etdirməlidir. Müəllif(lər), başlıq, nəşr tarixi, naşir, səhifə nömrəsi kimi məlumatlar (mövcud olduqca) qeyd olunmalıdır. İstinadlar elə verilməlidir ki, hakim istinad olunan mənbəni tapıb yoxlaya bilsin.

- **İstinadların uyğunluğu.** Arqumentlərlə əlaqəli olan mötəbər və məqsədəuyğun mənbələrə istinad olunmalıdır. Uyğunsuz və etibarsız mənbələrdən istifadə arqumentlərin keyfiyyətini aşağı sala və qiymətin azaldılmasına səbəb ola bilər.

## 2.4. Qiymətləndirmə aralığı

Adətən, yazılı müsabiqə işinin suallarını nə qədər geniş araşdırırsa, nə qədər ətraflı və aydın arqumentlər irəli sürə bilirsə, bir o qədər yaxşı bal alır. *Jessup* məhkəmə müsabiqəsi üzərindən yazılıya tətbiq olunan qiymətləndirmə şkalasına nəzər salaq. Bu müsabiqənin qaydalarına görə beş meyarın hər biri 10-20 bal aralığında qiymətləndirilir. Bu da hər bir yazılının 50-100 bal arasında qiymətləndirilə bilməsi deməkdir. Hər meyar üçün verilə bilən 10-20 bal aralığı keyfiyyət dərəcəsinə görə aşağıdakı kimi bölünür:

| Bir meyar üzrə bal şkalası | | | | | |
|---|---|---|---|---|---|
| 10-11 | 12-13 | 14-15 | 16-17 | 18-19 | 20 |
| Zəif | Kafi | Yaxşı | Çox yaxşı | Əla | Mükəmməl |

Bir yazılının cəmi ala biləcəyi bal isə 50-100 aralığında ola bilər. Bu aralıq yazılının keyfiyyət dərəcəsinə görə aşağıdakı kimi bölünür:

| Bir yazılının ala biləcəyi bal şkalası | | | | | |
|---|---|---|---|---|---|
| 50-59 | 60-69 | 70-79 | 80-89 | 90-99 | 100 |
| Zəif | Kafi | Yaxşı | Çox yaxşı | Əla | Mükəmməl |

Əla və mükəmməl balları müstəsna keyfiyyətli yazılara vermək lazımdır. Yazılıya qiyməti iki yolla verə bilərsiniz:

- Hər meyar üzrə ayrı-ayrı qiymət verib onları toplamaqla.
- Birbaşa yekun qiymət verməklə.

Bu üsullardan hansını istifadə etməyiniz şəxsi seçimə bağlıdır. Ayrı-ayrı meyarlar üzrə balları yazıb yekun qiyməti çıxara, ya da birbaşa yekun qiyməti də verə biləriniz. Birbaşa yekun qiymət verərkən hakim uyğun gördüyü bal aralığını seçir (məsələn, çox yaxşı), sonra həmin aralıqdakı spektr üzrə yazılının konkret hansı bala layiq olmasına qərar verir (məsələn, 84).

Təşkilatçılar yalnız verilmiş yekun balı hesablamalarda nəzərə alırlar. Bu səbəbdən hansı üsuldan istifadə etməyinizdən asılı olmayaraq yekun balın yazı üçün uyğun

gördüyünüz qiyməti göstərdiyindən əmin olmaq lazımdır.

## 2.5. Rəy və təkliflər

Qiymət vərəqində bal xanasından əlavə həm də rəy bölməsi ola bilər. Yazı barədə rəy vermək vacib deyil, lakin iştirakçıya niyə hansı qiyməti verdiyinizi izah etmək, güclü və zəif nöqtələri göstərmək, yazı bacarıqlarını inkişaf etdirmək üçün rəy bildirmək arzuolunandır. Rəyləri, bir qayda olaraq, maddi hüquqla bağlı deyil, yazı texnikası ilə bağlı bildirmək istənilir. Bu məhdudiyyət nəzərə alınmaqla hakim sərbəst olaraq iştirakçıya öz rəyini bildirməlidir.

Rəy verərkən yazının müsbət və mənfi tərəfləri barədə konkret olmaq lazımdır. Yazının dəqiq olaraq hansı hissələrinin təkmilləşdirməyə və ya gücləndirməyə ehtiyacı olduğu qeyd edilməlidir. Təkmilləşdirmə üçün aydın təkliflər verilməlidir. Məsələn, sadəcə "*arqumentiniz daha güclü ola bilərdi*" rəyi əvəzinə "*zəruri müdafiə üzrə mövqeyinizi dəstəkləyən məhkəmə qərarlarından nümunələr gətirsəydiniz, arqumentiniz daha güclü ola bilərdi*" rəyini vermək olar.

Hakim təkmilləşdirmə üçün rəylər verərkən müsbət tərəflərin olduğunu da qeyd və təqdir edə bilməlidir. Belə balanslaşdırma iştirakçılara nəyi yerində etdiklərini və nə üzərində işləməli olduqlarını başa düşmək üçün kömək edəcək. Məsələn: "*II arqumentin əsaslandırmasını oxucuya aydın yol xəritəsi ilə çox yaxşı təqdim etmisiniz. Lakin qanunvericinin niyyətini daha dərindən müzakirə etməklə təhlilinizi gücləndirə bilərdiniz.*"

Qiymətləndirmə meyarlarına uyğun aşağıdakı rəy nümunələrini göstərmək olar:

- **Struktur və təşkil.** Belə rəy yazının ümumi tərtibatına, arqumentlərin məntiqi düzülüşünə, bölmə başlıqlarının aydınlığına toxuna bilər. Məsələn: "*Yazınızı daha aydın strukturla təkmilləşdirmək olar. Arqumentinizi müxtəlif bölmələrə ayırmaq və oxunaqlılığı artırmaq üçün başlıqlardan istifadə etməyi nəzərə alın.*"
- **Hüquqi təhlil və araşdırma.** Bu barədə rəy arqumentlərin dərinliyinə və dəqiqliyinə, hüquq qaydalarının düzgün tətbiqinə, qanun və məhkəmə qərarlarından səmərəli istifadəyə toxuna bilər. Məsələn: "*Konstitusional məsələ üzrə təhliliniz ətraflıdır, amma mövqeyinizi daha yaxşı dəstəkləmək üçün əlavə məhkəmə təcrübəsini araşdıra bilərdiniz.*"

- **Yazı üslubu və aydınlıq.** Bu növ rəylərin fokusu sadə dildən istifadə, cümlə strukturunun keyfiyyəti və yazının ümumi oxunaqlılığı olur. Məsələn: "*Yazının [...], [...] hissələrində oxucuya anlaşılması çətin ola biləcək bir neçə uzun və mürəkkəb cümlə (və ya abzas) var. Onları hissələrə bölüb qısa cümlələrdə (hissələrdə) vermək daha yaxşı olardı.*"

- **İstinadlar və format.** Belə rəydə istinad qaydalarından düzgün istifadəyə, istinadların anlaşıqlı olmasına və düzgün mənbəyə göndərişə, formatın sabit olmasına və yazının ümumi səliqəsinə toxunula bilər. Məsələn: "*Müsabiqənin tələb etdiyi Oksford istinad qaydalarının bütün yazı boyu tətbiqini təmin etməyiniz lazım idi. Həm də istifadə etdiyiniz şrift ölçüsü və üslubu ilə bağlı yazıda sabitliyi təmin etməli idiniz.*"

# 3. ŞİFAHİ RAUNDLARDA SUALLAR VƏ KOMMUNİKASİYA

## 3.1. Şifahilər haqqında qısaca

Komandalar yazılarını təqdim etdikdən sonra bir müddət şifahi raundlarda iştiraka hazırlaşırlar. Bu müddət ərzində arqumentlər dəyişdirilə, inkişaf etdirilə, yeni arqumentlər düşünülə bilər. Hakimlərdən gözlənilən komandaların arqumentlərini, bilik və bacarıqlarını yoxlamaq, müvafiq meyarlar əsasında komandaların çıxışlarını ədalətli qiymətləndirmək, sonda isə iştirakçıların özlərini inkişaf etdirmələri üçün rəy və təkliflər verməkdir.

Çox vaxt hakim masasında tək sayda, əsasən də, üç hakim olur. İclas sədrisinizsə, raundun yolunda getməsini, vaxta riayət edilməsini təmin edin. Sədr vaxtdan məsuldur və buna görə də çıxışçının vaxtı çox keçməsinə imkan verməyin. Sədr deyilsinizsə, sədrin iclası aparmasına hörmət saxlayın. O cümlədən, hakim masasının bütöv görünməsi müsbət təsir bağışlayır: həmkarlarınızın suallarını davam etdirməklə, sözünü kəsməməklə vahid mövqe sərgilənməsinə çalışın.

Həm qiymətləndirməni düzgün etməkdən əmin olmaq, həm də rəy və təkliflər vermək üçün raund ərzində iştirakçıların çıxışları barədə qeydlər götürün. Aşağıda sual vermə texnikası, aktiv dinləmə bacarığı və ümumiyyətlə raundda davranışla bağlı tövsiyələr yer alır.

## 3.2. Sualların əhəmiyyəti

Hakimlər şifahi raundlarda iştirakçıların arqumentini dinləməklə bərabər edilən çıxışlara aid suallar verir. Hər şeydən əvvəl hakim yadda saxlamalıdır ki, sualların

verilməsi tərəflərin arqumentlərini daha dərindən öyrənmək üçündür. Hakim edilən çıxışlara səmimi və həqiqi maraq nümayiş etdirməlidir. Şifahi raundlarda hakimlərin iştirakçılara suallar verməsi mühüm rol oynayır və aşağıdakı əsas məqsədlərə xidmət edir:

- **Arqumentlərin qiymətləndirilməsi.** Suallar hakimlərə arqumentlərin güclü və zəfi tərəflərini yoxlamaq imkanı verir. Sual verməklə hakim hüquqi əsaslandırmanı, qaydaların faktlara tətbiqini və iştirakçının mövqeyinin inandırıcılığını dəyərləndirir. Məsələn, bu məqsədlə hakim iştirakçıdan soruşa bilər: "*Məhkəmənin oxşar faktlar əsasında fərqli nəticəyə gəldiyi [...] qərarı ilə sizin arqument necə uzlaşır?*"

- **İştirakçıların biliyinin yoxlanılması.** Hakimlər suallar vasitəsilə iştirakçıların məsələ barədə biliyini və işi necə qavradığını yoxlamağa nail olur. Hakim beləcə iştirakçının əlaqəli hüquq qaydalarını, məhkəmə təcrübəsini nə qədər yaxşı anladığını müəyyən edə bilər. Məsələn: "*Əsaslandığınız bu qanunun qəbulunun arxasında dayanan dövlət siyasəti nədir? Həmin siyasətin hazırki işlə əlaqəsini izah edə bilərsiniz?*"

- **Tənqidi düşüncənin təşviqi.** Suallar iştirakçıları öz arqumentləri barədə tənqidi düşünməyə, gözlənilməz vəziyyətə uyğunlaşmağa və spontan hüquqi təhlil aparmağa vadar edir. Bu proses iştirakçılara sürətli düşüncə, çeviklik, uyğunlaşma kimi vacib praktiki hüquqi bacarıqları inkişaf etdirməyə yardım edir. Məsələn, belə bir sualla iştirakçının nə qədər dərin hazırlaşdığını yoxlamaq olar: "*Sizin arqumentinizi qəbul etsək, oxşar işlər üçün bunun potensial təsirləri nə ola bilər?*" Yaxşı iştirakçı sadəcə öz mövqeyinə sərf edənlər nöqtələrlə kifayətlənmir, ona əks olan mövqeləri də təhlil etməyi bacarır.

## 3.3. Sualların bəzi növləri

Müxtəlif sual növləri şifahi raundlarda fərqli məqsədlər üçün lazım olur. Hakim hədəflərindən asılı olaraq fərqli suallardan istifadə edə bilir:

**Açıq sonlu suallar.** Bu növ suallar ilə çıxışçının toxunmadığı mühüm məsələlər barədə arqumentlərini eşitməyə nail olmaq olar. Təbiidir ki, vaxt məhdu-diyyətinə görə çıxışçı müəyyən xətt üzrə hərəkət edir və onu yoxlamaq üçün əlavə suallara

ehtiyac olur. Belə suallar çıxışçılara işi əhatəli qavradıqlarını nümayiş etdirmək üçün imkan yaradır. Məsələn:

- *Bəs [...] məsələsi ilə bağlı arqumentiniz nədir?*
- *İddiaçının [...] haqqında arqumentini necə cavalayardınız?*
- *[...] məhkəmə qərarı cari işin faktlarına necə tətbiq olunar?*
- *İzah edə bilərsiniz niyə [...] qaydasını yox, siz istinad etdiyiniz qaydanı bu işə tətbiq etməliyik?*

**Qapalı sonlu suallar.** Bu növ suallar xüsusi bir məlumatla əlaqədar "hə" və ya "yox" tipli qısa cavab tələb edir. Çıxışçının arqumentasiyası ilə əlaqədar konkret bir fakt və ya hüquq qaydası barədə biliyini yoxlamaq, yaxud da hansısa iddianı aydınlaşdırmaq üçün belə suallardan istifadə edilə bilər. Məsələn: "*Məhkəmə təcrübəsi bu dəlilinizi dəstəkləyir?*". Nəzərdə saxlamaq lazımdır ki, qapalı sonlu sual soruşulsa da, çıxışçı cavabının hüquqi kontekstini izah etmə ehtiyacı görə və cavabını davam etdirə bilər.

**Yönləndirici suallar.** Belə suallar ifadə tərzi ilə hansısa cavabı, yaxud hansısa faktın mütləq mövcudluğunu təklif edir. Real məhkəmə proseslərində istifadəsi məsləhət görülməsə də, bəzən hakimlər məhkəmə müsabiqələrində iştirakçının çətin vəziyyətə və sualla edilən fərzlərə necə reaksiya verməsini yoxlamaq üçün belə suallardan istifadə edir. Məsələn:

- *Qəbul etməzdiniz ki, şərtləri nəzərə aldıqda cavabdehin əməli açıq-aşkar ehtiyatsızlıqla törədilmişdi?*

  və ya:

- *İddia etdiyiniz pozuntunun edilməsinə ilk növbədə Cavabdehin işğalı səbəb olmamışdı?*

Yaxşı olar ki, bu növ sual vermək əvəzinə hakim bir az da dəqiqləşdirmə edib bunu daha aydın hüquqi suala çevirsin. Məsələn, ilk sualın əvəzinə ehtiyatsızlıq elementlərini aydınlaşdıracaq şəkildə, ikinci sualı "təmiz əllər" doktrinasını izahını tələb edəcək şəkildə soruşmaq olar.

**Hipotetik suallar.** İşin hallarında birbaşa toxunulmasa da, müzakirə olunan hüquqi məsələlərlə əlaqəli ssenarilər təklif etməklə hipotetik suallar soruşmaq olar. Belə suallarla iştirakçıların hüquq qaydalarını yeni situasiyalara tətbiq etmək və cari işin sərhədlərindən kənarı düşünmək bacarığını yoxlamaq olar. Məsələn:

"*Fərz edin ki, iddiaçı risklərdən xəbərdar idi. Bu cavabdehin məsuliyyəti barədə iddianıza necə təsir edərdi?*"

## 3.4. Effektiv sual soruşma

İştirakçıları daha yaxşı qiymətləndirmək üçün sual soruşma texnikanızın effektiv olması lazımdır. Effektiv sorğulamanın hədəfində arqumentlərin arxasındakı məntiqin "niyə"sini öyrənmək durur. Niyə istinad olunan qanun bu problemə tətbiq olunmalıdır? Niyə o məhkəmə qərarındakı nəticə bu işə tətbiq olunmalıdır? İştirakçı gətirdiyi hər dəlili əsaslandırmağı, dəstəkləməyi bacarmalıdır. Bunu yoxlamaq üçün sualları effektiv soruşmaq barədə aşağıdakı tövsiyələri nəzərə ala bilərsiniz.

**Sualları düzgün formulə edin.** Effektiv sual soruşmaq üçün suallar aydın, dəqiq və mümkün qədər qısa formulə edilməlidir. İştirakçının sualı başa düşməsindən əmin olmaq və anlaşılmazlığa səbəb ola biləcək qeyri-müəyyən ifadələr işlətməmək üçün uyğun hüquqi terminologiyadan istifadə edin. Məsələn: "*Bununla əlaqədar hüquq haqqında danışa bilərsiniz?*" əvəzinə sualı xüsusiləşdirin: "*Uşağın marağının pozulduğunu bəyan edib keçdiniz. İzah edə bilərsinizmi, uşağın valideyndə saxlanması işlərində "uşağın marağı" anlayışı necə tətbiq olunur?*"

Konkret nəyi soruşmaqdan əmin olmamış sualı spontan formulə etmək üçün iştirakçı ilə söhbətə başlayanda iştirakçının vaxtını alırsınız. Bu, adətən, mürəkkəb hüquqi məsələlərin sorğulanması ilə bağlı ortaya çıxan problemdir. Bundan yayınmaq üçün çıxışa daim diqqətlə qulaq asmaq və deyilənləri sürətli təhlildən və süzgəcdən keçirmək lazımdır.

**Həqiqi sual verin.** İştirakçını yoxlamağa köməyi olmayan bəyanatlar verməyə deyil, həqiqətən nəyisə sorğulayan sual soruşmağa çalışın. Məsələn, iştirakçı hüquqi əsaslandırma edərkən "*axı müsabiqə işinin 15-ci paraqrafında [...] deyilir..*" deyib iştirakçıya qəribə baxmaq hansısa məna verməyə bilər. Bunun əvəzinə fəmin faktı hüquqi əsaslandırma ilə əlaqəli suala çevirin. Məsələn: *Müsabiqə işinin 15-ci paraqrafındakı [...] faktı ilə bu hüquqi təhliliniz necə uzlaşır?*

**Qərəzli olmayın.** Hakimin tərəfsizliyi qoruması, qərəz nümayiş etdirəcək suallardan yayınması vacibdir. İştirakçını öz şəxsi mövqeyinizlə razılaşdırmağa

yönəlmiş suallardan çəkinin. Konkret nəzər nöqtəsi ilə razılaşma məcburiyyəti hiss etdirmədən iştirakçıya arqumentlərini izah etməyə imkan yaradan suallar soruşun. Məsələn, bu cür suallardan çəkinin: "*Açıq görünmür ki, cavabdehin hərəkəti hüquqazidd idi?*" Əvəzində sualı belə qoya bilərsiniz: "*Cavabdehin hərəkətinin hüquqauyğun olmasını dəstəkləyəcək hansı dəlilləriniz var?*"

**İştirakı təşviq edin.** Çıxışçının potensialını üzə çıxara bilməsini mümkün edən suallara üstünlük verin. Hakimlərlə "söhbət"də çıxışçının iştirakını təşviq etmək üçün ona arqumentlərini daha ətraflı izah etməyə imkan verən suallar verin. Elə bir mühit yaradın, yanaşma və intonasiya sərgiləyin ki, iştirakçılar öz fikirlərini ifadə etməkdə rahat olsunlar.

Buna, xüsusən, çıxışçı kifayət qədər əsaslandırma etmədikdə, əlaqəsiz, əsas suallardan uzaq çıxış etdikdə ehtiyac olur. Təcrübəsiz iştirakçılar bu səhvi edə bilir deyə onlara kömək etmək lazımdır ki, məhdud vaxt səbəbindən özlərini sübut etmə imkanından məhrum olmasınlar. Ümumiyyətlə, iştirakçının əsas məsələlərdən xəbərdar olub-olmadığını yoxlamaq üçün şərait yaradılmalıdır.

Məsələn, çıxışçı beynəlxalq ətraf-mühit hüququ çərçivəsində cavabdehin əməlləri ilə əlaqədar iddiaçının ərazisində yaranmış zərər haqqında məsələyə toxunur. Bu kontekstdə o iddia edir ki, cavabdehin aldığı tədbir alıb-almamasından asılı olmayaraq zərərin olması məsuliyyət üçün kifayətdir. Görünür, iştirakçı belə bir hüquq qaydasının əsaslılığını tam aydınlaşdırmadan irəliləmək istəyir. Hakim soruşa bilər: "*Arqumentinizi davam etməzdən öncə gəlin gətirdiyiniz dəlili bir az aydınlaşdıraq. Tədbirlilik və ehtiyatlılığın təkcə davranış öhdəliyi deyil, həm də nəticə öhdəliyi olduğunu iddia edirsiniz. Ətraf-mühit hüququ çərçivəsində tədbirliliyin nəticə öhdəliyi olmasını iddia etmək üçün nəyə əsaslanırsınız?*"

**Ard-arda əlaqəli, tamamlayıcı suallar verin.** Mürəkkəb məsələləri aydınlaşdırmaq üçün, həm də müzakirəni effektiv yönləndirmək üçün sorğulamanı məntiqi və əlaqəli ardıcıllıqla edin. İştirakçıya arqumentlərini inkişaf etdirməsinə, mürəkkəb arqumentləri aydınlaşdırmasına və öz mövqeyinə uyğun məntiqi sonluğa yönlənməsinə kömək etmək üçün verilən cavablar əsasında tamamlayıcı suallar verin.

Məsələn, aşağıdakı ardıcıllığa baxın:

1. *Bayaq dediniz ki, müqavilə qüvvədən düşüb. İzah edə bilərsiniz niyə?*
2. *Cavab...*
3. *İndi isə deyirsiniz ki, cavabdeh müqaviləni pozub. Aydınlaşdıra bilərsiniz, müqavilə qüvvədən düşübsə, pozuntu necə yarana bilər?*
4. *Cavab...*

Ya da bu sual ardıcıllığına baxın:

1. *İddia etdiniz ki, iddiaçıya ziyan cavabdehin ehtiyatsızlığı nəticəsində dəyib. Bu nəticəyə necə gəldiyinizi izah edə bilərsiniz?*
2. *Cavab...*
3. *Cavabdehin konkret hansı əməllərinin ehtiyatsız olduğunu iddia edirsiniz?*
4. *Cavab...*
5. *Bu situasiyada tələb olunan diqqət standartı sıraladığınız əməllərə necə tətbiq olunmalıdır?*
6. *Cavab...*

**Əks-arqumentlərdən istifadə edin.** Çıxışçı öz arqumentlərini səsləndirərkən qarşı tərəfin gətirdiyi (və ya gətirə biləcəyi) əks-arqumentlər barədə suallar soruşa bilərsiniz. Məsələn:

- *Bunula bağlı cavabdeh deyə bilər ki, təqsir yoxdur deyə məsuliyyət yaranmayıb. Bunu necə təkzib edərdiniz?*

  *ya da*:

- *İddiaçı dəlil gətirdi ki, bu qayda beynəlxalq adət kimi nəzərə alına bilməz. Qayda beynəlxalq adət haqqında tələbləri qarşılayır?*

**Vəziyyətə uyğunlaşın.** İştirakçıların bacarıq səviyyəsi, müsabiqə işinin mürəkkəbliyi və çıxışlar üçün qoyulmuş vaxt məhdudiyyətləri kimi şərtlər var. Belə müsabiqə şərtlərini nəzərə almaqla sual vermə yanaşmanızı vəziyyətə uyğunlaşdırın.

Məsələn, çıxışçı mürəkkəb bir hüquqi məsələ üzrə çətinlik çəkirsə, məsələni daha sadə, daha rahat hissələrə bölməklə ona yol göstərin. Yaxud çıxışçının çox da yaxşı olmadığını görə-görə davamlı çətin suallar verməkəvəzinə nisbətən asan suallarla davam edin. Çıxışçı yenə çətinlik çəkməyə davam edərsə, bir az da üzərinə getmək

əvəzinə bunu qiymətləndirmədə nəzərə alın.

Çıxışçı suala cavab verə bilmirsə, təkid etməyin yeri yoxdur. İştirakçılar üçün bu çox stresli prosesdir və stres altında emosional böhran labüddür. Ya da çıxışçının vaxtı az qalarkən uzun danışmaqla iştirakçının vaxtını almayın, sualı qısa formada soruşmağa çalışın.

O cümlədən təkziblər hissəsində də az vaxtda qarşı tərəfin arqumentləri ilə bağlı təkzib və əks-təkziblər verilir. Buna görə bu hissədə iştirakçıları dinləmək, təkzib texnikasına qiymət vermək lazımdır.

**Ritorikanızda diqqətli olun.** Effektiv suallar soruşmağın digər aspekti intonasiya və dildə diqqətli olmaqdır. Hakim kimi hörmət və peşəkar rəftarı saxlamaq çətin suallar soruşarkən belə çox vacibdir. Ad hominem hücumlardan, iştirakçını aşağılayan, aqressiv və ziddiyyətli dil işlətməkdən yayının və bunun yerinə konstruktiv və dəstəkləyici atmosferi təşviq etməyə fokuslanın.

İntonasiyanız tənqidi düşüncə və ətraflı təhlil nümayiş etdirməyə həvəsləndirməli, çıxışçını hücuma məruz qalmış və özünümüdafiədə hiss etdirməməlidir. Məsələn, “yox, səhv cavabdır” demək əvəzinə belə deyə bilərsiniz: “İzah edə bilərsiniz ki, bu əsas istinad etdiyiniz məhkəmə qərarı ilə necə uzlaşır?” Bu yanaşma həm iştirakçılar, həm də hakimlər üçün pozitiv və öyrədici mühit yaradır. Yadda saxlayın ki, iştirakçı sizin rəqibiniz deyil.

## 3.5. Aktiv dinləmə

**Aktiv dinləmənin vacibliyi.** Şifahi raund bir saatdan çox çəkə bilir. Bu müddət ərzində iki iddiaçı, iki cavabdeh çıxışçıya davamlı və aktiv qulaq asmaq lazımdır. İştirakçıların gözləntisi odur ki, hakim arqumentlərə yaxşıca qulaq assın və beləcə iştirakçı öz bilik və bacarığının ədalətli qiymətləndirilməsinə nail olsun.

Çıxışları aktiv dinləmək üçün prafraz, aydınlaşdırma, xülasə istəmək kimi üsullardan istifadə etmək olar. Bununla hakim iştirakçını düzgün başa düşdüyünə və diqqətini aktiv saxladığına əmin olur. Məsələn, iştirakçının konkret hansı arqumenti gətirdiyindən əmin deyilsizsə, dediklərini parafraz etməklə onu düzgün başa düşdüyünüzü yoxlaya bilərsiniz: “*Onda siz iddia edirsiz ki, qanunvericilik tarixçəsi*

*əsas alınaraq bu qayda dar təsfir olunmalıdır?*"

**Diqqət yayındıran şeylərdən uzaq olun.** Raund ərzində fokusu sırf çıxışlara yönləndirin. Başqa məşğuliyyətlər etməklə, başqa şeylər düşünməklə diqqətinizin yayınmasına imkan verməyin. Emosiyalarınızın çıxışçını dinləməyinizə əngəl olmasına imkan verməyin. Telefonun, elektron cihazlarınızın səssiz olmasından əmin olun, onları istifadə etməkdən çəkinin. Deyilənlərlə bağlı qeydləri qısa yazın ki, diqqətiniz çıxışdan yayınmasın.

**Empatiya və anlayış göstərin.** Çıxışçının vəziyyətini başa düşərək, empatiya və anlayışla, onun mövqeyinə səmimi maraq göstərməklə dinləyin. Məsələn, iştirakçı həyəcanlı, tərəddüdlü görünürsə, hakim onun keçirdiyi hissləri başa düşdüyünü bildirə və onu davam etmək üçün həvəsləndirə bilər: "Başa düşürəm ki, bu çox mürəkkəb bir məsələdir. Problem deyil, bir az düşünüb arqumentinizi rahat izah edin (suala cavab verin)."

**Tamamlayıcı suallar verin.** Cavabda qeyri-müəyyənlik varsa, ya da verilən cavabın daha yaxşı əsaslandırılmasına ehtiyac görürsünüzsə, sual ardıyca sual verməyə çəkinməyin. Məsələn, iştirakçı belə bir cavab verir: "*Bunu ona görə iddia edirik ki, həm dediyimiz kimi qanunvericilik tarixçəsi bu qaydanın geniş təfsir olunmasına dəlalət edir, həm də məhkəmə təcrübəsi bunu təsdiq edir*". İştirakçı məhkəmə təcrübəsi barəsində başqa istinad vermədən arqumentasiyasına qaldığı yerdən davam etmək istəyirsə, hakim iştirakçını dayandırıb bu barədə sualını verə bilər. İştirakçı məhkəmə təcrübəsindən nümunələr gətirdikdə, istinad etdiyi işlərdəki faktlarla cari işin faktlarının oxşarlığı barədə sual vermək olar.

**Adekvat reaksiya verin.** İştirakçının dediklərinə və cavablarına qısa rəy verməklə və ehtiyac olduqda izah istəməklə müvafiq reaksiya verin. Məsələn: "*Çox maraqlı yanaşmadır. İzah edə bilərsiniz bu bizim işə necə tətbiq olunur?*" və ya "*Cavab aydındır, çıxışınıza davam edə bilərsiniz.*" Əsas məsələlərdən uzaqlaşıb daha az əhəmiyyətli, yaxud tamamilə əhəmiyyətsiz məsələlərdən danışan çıxışçılar da olur. Belə olduqda çıxışı yönləndirməkdən çəkinməyin. Əks halda hakimlər çıxışdan qopur. Çalışmaq lazımdır çıxışlar qarşılıqlı mübadilə şəraitində keçsin ki, hər kəs fəal olsun və bir-birini dinləsin.

## 3.6. Qeyri-şifahi kommunikasiya

**Qeyri-şifahi kommunikasiya elementləri.** Bu anlayış əsasən raundda hakimin davranışı ilə bağlı bədən dili, üz ifadələri, əl-qol hərəkəti, səs tonu kimi məsələləri ehtiva edir. Hər davranış şəkli fərqli mənalar daşıya bilər deyə belə işarələri, eyhamları başa düşmək hakimə daha yaxşı kommunikasiya qurmağa kömək edə bilər.

**Qeyri-şifahi işarələri başa düşün.** İştirakçının həyəcanlı və yə özündən əmin olması kimi işarələri başa düşmək hakimə kommunikasiyanı vəziyyətə uyğunlaşdırmaqda kömək edir. Məsələn, iştirakçı həyəcanlı görünürsə, onda özünə inam yaratmağa kömək etmək üçün səs tonunuzu daha rahatlaşdırıcı etmək, mimikaya fikir vermək, ya da daha sadə suallar soruşmaq barədə düşünə bilərsiniz.

**Ümumi kommunikasiyanı təkmilləşdirin.** Adekvat jestlər, əl hərəkətləri istifadə edməklə, göz təmasını saxlamaqla, vurğulamaq üçün səs tonundan istifadə etməklə iştirakçılarla daha yaxşı əlaqə qura bilərsiniz. Məsələn, sual soruşarkən bir az önə əyilin, sualı verərkən və cavabı dinləyərkən göz təmasını mütləq saxlayın, rahat cavab verilməsini imkan yaratmaq üçün maraq göstərici səs tonundan istifadə edin.

**Neqativ eyhamlardan çəkinin.** Maraqsız və diqqətsiz görünmək, çıxışa qulaq asmayıb telefonda yazışmaq, istehza etmək, yersiz gülmək, baş silkələmək, oturacaqda yayxanmaq, uyğunsuz əl-qol hərəkətləri etmək, zəif göz təmasında olmaq kimi mənfi yüklü eyhamlardan çəkinin. Məsələn, iştirakçı danışarkən qollarınızı büküb ondan uzağa baxmaq maraqsızlıq və bəyənməmə mənasını verər ki, bu da onun çıxışına neqativ təsir göstərə bilər.

# 4. ŞİFAHİ RAUNDLARDA QİYMƏTLƏNDİRMƏ

## 4.1. Qiymətləndirməyə ümumi baxış

Şifahi raundlardakı qiymətləndirmə iştirakçıların növbəti mərhələlərə keçib-keçməməsini müəyyənləşdirir. Bu səbəbdən hakimlərin üzərinə xüsusi məsuliyyət düşür. Hakim iştirakçıların hüquqi bilik və bacarıqlarını mövcud kriteriyalar və şərtlər əsasında diqqətlə qiymətləndirməli, konstruktiv rəy verməyə çalışmalıdır.

Qiymətləndirmə raund növü və müsabiqənin mərhələsi baxımından dəyişə bilər. Müsabiqələrin ilkin seçim mərhələlərində ballarla qiymətləndirmə tətbiq olunsa da, yarım-final, final kimi yuxarı mərhələlərdə hakimdən, adətən, yalnız hansı tərəfin qalib olmasını bildirmək istənilir. Çünki yuxarı mərhələlərdə komandanın növbəti mərhələyə keçməsini bəzən sadəcə bir raundun nəticəsi müəyyən edir. İlkin mərhələlərdə isə sıralamanı komandanın çıxdığı raundlarda qazandığı ballar müəyyən edir.

Raund bitdikdən sonra komandalar zalı tərk edir və hakimlərə müzakirə etmək və qiymətləndirməni yekunlaşdırmaq imkanı verilir. Kriteriyalar üzrə deyil ümumi təxmini balları (məsələn, 100-dən 79) hər bir iştirakçı çıxış etdikcə yaza bilirsinizsə, raund ərzində artıq bunu edə bilərsiniz. Raund sonrası müzakirə əsasında, ola bilər, bu ballara yenidən baxasınız.

İştirakçılara və komandalara bal yazarkən hakim iki nəzər nöqtəsindən vəziyyətə baxa bilər:

- birincisi ümumi müsabiqə şərtlərini nəzərə aldıqda komandanın və üzvlərinin

fərdi səviyyəsi;

- ikincisi isə cari raunddakı komandalar və çıxışçılar arasındakı müqayisədir.

Çıxışlara bu baxış bucaqlarından eyni vaxtda baxıb qiymətləndirmə etmək lazımdır.

**Birinci** nəzər nöqtəsindən baxdıqda verilən bal aralığına təsir edən komandanın ümumi olaraq və çıxışçının fərdi olaraq digərlərinin səviyyəsi ilə müqayisəsidir. Müsabiqə işinin məsələləri barədə təşkilatçıların sizə təqdim etdiyi məxfi material, habelə öz müşahidənizlə etdiyiniz təhlil vasitəsilə çıxışçının obyektiv olaraq hansı bal aralığında dayandığını təxmin edə bilərsiniz. İştirakçı ümumi olaraq məsələlərə hansı dərinlikdə hakimdir, mənbələrdən nə qədər xəbərdardır, raundun ən yaxşı çıxışçısı müsabiqənin digər iştirakçıları ilə müqayisədə hansı səviyyədə görünür, araşdırma hansı səviyyədədir, əsaslandırma necədir, aydın və inandırıcı danışa bilirmi, digər çıxışçıların balları hansı aralıqda olmalıdır?

**İkinci** nəzər nöqtəsi üzrə faktor isə hakimlik edilən raundda hansı komandanın və çıxışçının nisbətən güclü, hansının nisbətən zəif olmasıdır. Bu faktor fərdi balları və ballar arasında fərqləri müəyyən etmək üçün lazım olur. Fərdlər arasında nə qədər bal fərqi olsa ədalətli olar? Fərdi ballar nə qədər olsa qalib görünən komanda həmin balların cəmi əsasında qalib olar?

Adətən, hakimlərdə iştirakçıların yaratdığı təəssürat eyni olur deyə ballar da yaxın olur. Amma hər ehtimala qarşı həm komandaların çıxışları üzrə fərq yaradan nəyisə unutmadığınızdan əmin olmaq, həm gəldiyiniz nəticənin düzgünlüyünü təmin etmək, həm də veriləcək ballar arasında çox fərq yaranmaması üçün raunddan sonra hakimlərin çıxışları müzakirə etməsi məsləhətdir. Müzakirədə hansı komandanın qalib olmasını düşündüyünüzü, niyə bu nəticəyə gəldiyinizi, ağlınızdakı bal aralığının necə olmasını deməkdən çəkinməyin. Kimin qalib olması, kimin hansı bala layiq olması barədə hakimlər arasında fikir ayrılığı da ola bilər. Mütləq deyil ki, fikrinizi dəyişəsiniz.

## 4.2. Qiymətləndirmə meyarları

Şifahi çıxışların qiymətləndirilməsi üçün məhkəmə müsabiqələrində müxtəlif

meyarlardan istifadə edilir. Məsələn, *Jessup* məhkəmə müsabiqəsində meyarlar belədir: (1) hüquq biliyi, (2) sualların cavablandırılması, (3) fakt biliyi, (4) üslub, duruş, davranış və (5) təşkilatçılıq ilə vaxt idarəçiliyi. Bu meyarları çıxış edən hər fərd üçün tətbiq edilə biləcək şəkildə bir-bir izah edək:

### 4.2.1. Hüquq biliyi

Bu meyar iştirakçının işlə əlaqədar hüquqi qayda və prinsipləri bilməsi və qavraması ilə bağlıdır. Güclü hüquq biliyi olan çıxışçı hüquq qaydalarını dəqiqliklə qeyd edə, əlaqəli presendentlərə istinad edə və onları arqumentləri ilə əlaqədə effektiv şəkildə tətbiq edə bilməlidir. Çıxışçı həm də bu qaydaların hansı kontekstdə işlədiyini başa düşməli və mövqeyini dəstəkləməyən mənbələri fərqləndirə bilməlidir.

Bu meyar üzrə bal şkalasının yuxarı qalxması çıxışçının hüquqdan istifadədə artan qabiliyyəti və əhatəliliyi ilə müşahidə olunur. Aşağıdakı faktorlar daha yuxarı bal verilməsinə təsir edir:

- **Hüquq qaydalarının başa düşülməsi.** Yuxarı bal çıxışçının əlaqəli hüquq qayda və prinsiplərini daha dərin və dəqiq başa düşməsini tələb edir. Buna həmin qayda və prinsiplərin dəqiqliklə qeyd edilməsi, məqsəd, mahiyyət və elementlərinin başa düşülməsi, mənbələrdən istifadə etməklə izah və ya təfsir edilməsi, aydın tətbiq edilməsi də daxildir.
- **Məhkəmə təcrübəsindən istifadə.** Əlaqəli işlərə istinad edən və həmin işlərin cari işə necə təsir etdiyini anlayan çıxışçı daha yuxarı bal alır. İstinad olunan presedenti çıxışçı öz arqumentini dəstəkləmək üçün istifadə edə bilməlidir.
- **Əlverişsiz işlərin fərqləndirilməsi.** Çıxışçının cari işin faktları ilə əlverişsiz məhkəmə işinin hallarını fərqləndirə bilməsi ona yuxarı bal qazandırır. Çıxışçı göstərə bilməlidir ki, həmin presedentlər niyə cari işə tətbiq olunmamalı, niyə fərqli təfsir olunmalıdır.
- **Mürəkkəb hüquqi konsepsiyalarla iş.** Bal artdıqca çıxışçıdan mürəkkəb hüquq prinsipləri və konsepsiyaları ilə daha rahat və hərtərəfli işləmək gözlənilir. Çıxışçının yuxarı bal alması üçün təkcə prinsipi və ya anlayışı dilinə

gətirməsi kifayət etməməli, o, bunun hüquq sistemində və praktiki olaraq nə demək olduğunu başa düşməlidir.

- **Davamlılıq və intizam.** İştirakçı yuxarı bal almaq üçün bu bacarıqların nümayişində davamlı olmalıdır ki, daha yuxarı qiymətləndirilsin. Bu bacarıqları təsadüfi nümayiş etdirmək kifayət deyil.

### 4.2.2. Sual-cavab

Çıxışçının hakimlərin suallarına cavab vermə bacarığı ayrıca qiymətləndirilir. Təzyiq altında sürətli düşünmə və ifadə bacarıqları yoxlanılır. Yaxşı çıxışçı suallara əsas arqumentdən və mövqedən uzaqlaşmadan birbaşa və konkret, habelə mənbələrdən istifadə etməklə əsaslandırılmış cavab verməlidir. Arqumentlərinin güclü və zəif tərəflərini bildiklərini göstərmək üçün çıxışçı zəruri olduqda strateji etiraflar etməyi bacarmalıdır. Həm də çıxışçı mövqeyini gücləndirmək üçün cavablarını öz arqumentləri ilə rahatlıqla əlaqələndirə bilməlidir. Cavabı verdikdən sonra rahatlıqla əsas arqumentlərinə qayıda, keçid edə bilməlidir. Yəni suala müstəqil konsept kimi cavab verməkdən əlavə çıxışçı cavabının öz arqumentasiyası ilə necə əlaqəli olduğunu göstərə bilməlidir.

İştirakçının cavablarında keyfiyyət və bacarıq artdıqca  verilən bal da artır. Bu meyar üzrə bal şkalasına təsir edən faktorlara baxaq:

**Birbaşa cavablar.** Yuxarı bal suallara birbaşa, aydın şəkildə konkret cavab verilməsini tələb edir. Sual çətin və mürəkkəb olsa belə, çıxışçı sualdan yayınmamalı, cavabı bilməyəndə sadəcə cavabının olmadığını bildirməlidir. Bir neçə dəfə sualın aydınlaşdırılmasına baxmayaraq, çıxışçının əlaqəsiz cavablar verməyə davam etməsi yaxşı işarə deyil.

**Sualların arqumentasiyaya daxil edilməsi.** Cavablarını aruqmentləri ilə cızdığı çərçivəyə rahat daxil edə bilən, cavablarını əsas arqumentlərini aydınlaşdırmaq və ya gücləndirmək üçün istifadə edə bilən çıxışçı daha yuxarı bal alır.

**Strateji etiraflar.** Mövqeyinin zəif olduğu yerləri qəbul edib strateji gedişlər edən, daha güclü tərəfini müqayisədə vurğulamaqla zəif yerinin əhəmiyyətini

aşağı salmağı bacaran çıxışçı buna görə qiymətləndirilir.

**Hüquqdan və faktlardan istifadə.** İştirakçı suallara cavab verərkən də əlaqəli hüququ və faktları bildiyini nümayiş etdirməli, cavablarında gətirdiyi arqumentləri mənbələrə istinad etməklə əsaslandırmağı bacarmalıdır. Sadə məntiqi əsaslandırmadan çox hüquqi əsaslandırma istifadə olunması çıxışçının balını da artıracaqdır.

**Sakitlik və soyuqqanlılıq.** Sual-cavablar zamanı peşəkarlığı saxlamaq vacibdir. Çıxışçı təzyiq altında sakit qalmalı, çətin suallara nəzakət və təmkinlə cavab verməli, hakimi səmimi dinləməyə çalışmalı, uyğunsuz şifahi və ya qeyri-şifahi eyhamlardan (göz, mimika, əl hərəkətləri)  çəkinməlidir.

### 4.2.3. Fakt biliyi

Bu meyar iştirakçıların müsabiqə işinin faktlarını nə qədər başa düşdüyünü və faktları necə istifadə etdiyini yoxlayır. İştirakçılar hadisələrin xronologiyası, tərəflərin fəaliyyətləri, faktları əhatələyən kontekst kimi işin xırdalıqları ilə yaxından tanış olmalıdır. Onlar faktları düzgün və dəqiq ifadə edə bilməli, faktlardan mövqelərini dəstəkləmək üçün istifadə etməyi bacarmalıdır. İştirakçılar qarşı tərəfin faktları fərqli təfsir etməsini də təxmin etməli və bunu cavablamağa hazır olmalıdır. Faktların effektiv istifadəsi hüquqi arqumentin inandırıcılığı üçün peşəkar hüquqi bacarıq kimi də çox vacibdir.

Çıxışçı faktları hərtərəfli başa düşdüyünü, tətbiq etdiyini göstərdikcə balı da artır. Balın artmasına aşağıdakı faktorlar təsir edir:

**Faktların düzgünlüyü.** Çıxışçı faktları dəqiq xatırlamalı və təqdim etməli, işdəki paraqrafları qeyd etməklə hakimlərin faktı görməyinə kömək etməlidir. Faktı yanlış və ya təhrif etməklə demək balı aşağı salır.

**Faktların izahı və ya təfsiri.** Çıxışçı faktları vicdanlı və qərəzsiz təfsir edərsə, daha yaxşı bal alır. Məsələn, işdə yarımadanı materikə bağlayan yeganə quru yolunun bağlanması faktı var. Bu fakt əsasında  iştirakçının yarımada ilə əlaqənin tam kəsilməsini iddia etməsi faktın yanlış təfsiridir, çünki faktlar dəniz və hava əlaqəsinin olduğunu istisna etmir.

**Faktların tətbiqi.** Çıxışçı faktlardan arqumentlərini əsaslandırmaq üçün nə qədər effektiv istifadə edə bilirsə, bir o qədər balı artır. Çıxışçı istinad etdiyi hüquq qaydaları ilə istifadə etdiyi faktların əlaqəsini qurmağı bacarmalıdır.

**Mürəkkəb və ziddiyyətli faktlarla iş.** İşdə mürəkkəb və çıxışçının mövqeyinə zidd görünən faktlar çox olur. İştirakçı belə faktlarla həssas və anlayışla işləməlidir. Müdafiə olunan mövqeyə sərf etməsə belə, yaxşı çıxışçı belə faktın mövcudluğundan yayınmır. Əvəzində belə faktın hüquqi baxımdan əhəmiyyətsizliyini, yaxud da alternativ faktların əhəmiyyətini göstərməklə çıxışçı vəziyyəti öz xeyrinə çevirməyi bacarmalıdır.

**Faktlar barədə sualların cavablandırılması.** İştirakçı faktlarla bağlı sualları dəqiq və inamla cavablandırdıqca, daha yuxarı qiymətləndirilir. İştirakçının sual-cavablarda da faktın işin hansı paraqrafında qeyd edilməsini deyə bilməsi onun yaxşı fakt biliyinin olmasının göstəricisidir.

### 4.2.4. Üslub, duruş və davranış

Bu meyar çıxışçının şifahi raundda təqdimat üslubunu və texnikasını qiymətləndirmək üçündür. Çıxış zamanı rəsmi, lakin canlı ton saxlanmalıdır. Çıxışçı diqqətinin hakimlərdə olduğunu göstərməli, hörmət və peşəkarlıq nümayiş etdirməlidir. Çıxışçı həm də özünə inam və düzgün duruş sərgiləməli, çətin suallar və gözlənilməz gedişat qarşısında özünü itirməməlidir. Hakimlərlə göz təması və hörmət saxlayan dildən istifadə də bu meyarın tərkib hissəsidir.

Ümumiyyətlə, belə demək olar ki, məhkəmə mühitində yuxarıdakılar əsasında kommunikasiyanı effektiv aparan iştirakçı daha yuxarı qiymətləndirilir. Bal artdıqca çıxışçı aşağıdakılar üzrə daha yaxşı bacarıqlar nümayiş etdirir:

**Peşəkarlıq.** Buna rəsmi üslubda və hörmətlə danışıq, uyğun dildən istifadə, düzgün geyim və yerindən asılı olmayaraq hər kəsə hörmətlə davranmaq daxildir. Çıxışçının özündən çıxması, uyğunsuz emosionallığı, adekvat olmayan ifadələrdən istifadə etməsi mənfi göstəricidir.

**Özünə inam.** Çıxışçı arqumentlərini özünə əmin, göz təmasını saxayaraq və aydın danışaraq təqdim etməlidir. Təzyiq altında olarkən, çətin suallarla

qarşılaşdıqda, çıxışı sona yaxınlaşdıqca özünü itirməməlidir.

**Canlılıq, fəallıq.** Çıxışçının hakimlərlə fəal ünsiyyət qurması və onların diqqətini özündə saxlaması ona daha yuxarı bal qazandırır. Çıxışçı arqumentasiyasını həvəslə aparmaqla və suallara dərhal və effektiv reaksiya verməklə güclü mövqe sərgiləməlidir.

**Qeyri-şifahi kommunikasiya.** Təqdimat zamanı çıxışçı duruşununun düzgünlüyünü saxlamalı, əsas nöqtələri vurğulamaq üçün uyğun jestikulyasiyadan, üz ifadələrindən istifadə etməlidir. İştirakçı kəskin bədən hərəkətləri, addımlamaq, mənasız ifadələr (məsələn, "şey...", "hm", "ha") kimi yayındırıcı davranışlardan uzaq durmalıdır.

**Söhbətcil ton.** Əzbər və monoton səslənmək əvəzinə söhbətcil tonu saxlayan, arqumentasiyasını anlaşıqlı və hərəkətli edən çıxışçı daha yuxarı bal alır. İştirakçı divara deyil, onu dinləyən hakimlərlə danışdığını göstərməlidir. Yaxşı iştirakçı həm də düşünməyə vaxt qazandırmaq məqsədi daşıyan və təkrar-təkrar işlədilən qəliblərdən uzaq durur (məsələn, "sualınıza görə çox sağolun, möhtərəm hakim", "məsələ barədə narahatlığınızı başa düşürəm").

### 4.2.5. Təşkilatçılıq və vaxt idarəçiliyi

Çıxışçının ona məxsus vaxt çərçivəsində arqumentasiyanı düzgün qurması və vaxtını effektiv idarə etməsi bu meyarla qiymətləndirilir. Güclü arqumentasiya müzakirə olunacaq əsas başlıqlarla ayrılan aydın yol xəritəsi ilə aparılmalıdır. Mühüm məsələlərə üstünlük verilməklə hər başlığa lazımi vaxt ayrılmalıdır. İştirakçı vaxt məhdudiyyətlərindən xəbərdar olmalı və tələsəkən görünmədən çıxışının ayrılmış vaxta sığmasını təmin etməlidir. Hər müsabiqənin öz vaxt məhdudiyyətləri olur; Məsələn, komanda ona aid ümumi 45 dəqiqəni belə bölə bilər: 22 dəqiqə birinci çıxışçı, 21 dəqiqə ikinci çıxışçı, iki dəqiqə də təkzib və ya əkz-təkzib üçün.

Çıxışçı aşağıdakılar üzrə daha güclü bacarıqlar nümayiş etdirdikcə daha yaxşı bal alır:

**Məntiqi ardıcıllıq və axıcılıq.** Yuxarı bal çıxışçının arqumentlərini məntiqi

olaraq bir-birinə bağlı şəkildə qurmasını əks etdirir. Çıxışçı başlıqları, alt-başlıqları və məsələləri elə bir ardıcıllıqla təqdim etməlidir ki, hər yeni arqument öncəki üzərindən inkişaf etsin və mövcud ardıcıllığı tamamlasın. Bir başlıqdan və alt-başlıqdan digərinə keçərkən keçid hiss olunmalıdır.

**Yol xəritəsi.** Hər əsas arqumentinin əvvəlində çıxışçı toxunacağı nöqtələrin aydın xəritəsini təqdim etməlidir. Bu hakimlərə çıxışı izləməyə və arqumentin strukturunu başa düşməyə kömək edir. Daha yuxarı qiymət iştirakçının aydın və dəqiq yol xəritəsi təqdim edib izləmə bacarığını göstərir.

**Vaxt bölgüsü.** Çıxışçı vaxtını ağılla bölməli, hər məsələyə tələsmədən və ya uzatmadan kifayət qədər vaxt sərf etməyi bacarmalıdır. Məsələn, iki məsələyə toxunmalı olan çıxışçı ona ayrılan vaxtda yalnız bir məsələyə toxunursa, bu onun vaxtı düzgün idarə etmədiyini göstərir. Vaxtının azaldığını görən çıxışçı əhəmiyyəti az olan məsələləri buraxıb, növbəti məsələyə keçməli və vəziyyətə uyğunlaşmalıdır.

**Suallara cavablar.** Çıxışçılar suallara cavabları arqumentlərinin axıcılığını pozmadan öz çıxışlarına daxil etməyi bacarmalıdır. Çıxışçı sualları elə cavablamalıdır ki, vahid mövqeyini qoruya bilsin və cavabdan sonra rahat və kəsintisiz öz əsas arqumentlərinə davam edə bilsin.

**Sonlandırma.** Çıxışçı arqumentlərini əsas nöqtələrin icmalını verməklə və məhkəmədən nə istədiyini aydın deyərək arqumentlərini sonlandırmalıdır. Başqa sözlə, çıxışçı vəziyyətə hakim olduğunu və vaxtını yaxşı idarə etdiyini göstərə bilməlidir.

Əsas çıxışlardan sonra edilən təkzib və əkz-təkzib çıxışlarında, adətən, sual verilmir. Birinci tərəf ikinci tərəfin çıxışı üzrə seçdiyi bir neçə arqumenti təkzib etməyə çalışır, ikinci tərəf çıxıb bu təkziblərə əks-təkzib verir. Bu hissə qısa müddətdə olduğu üçün, sual verməkdən yayınıb çıxışçıya özünü göstərmək üçün imkan yaratmaq lazımdır. Beləcə hakimin yekun olaraq meyarlar üzrə iştirakçını bir daha dəyərləndirmək şansı olur.

## 4.3. Qiymətləndirmə aralığı

*Jessup* məhkəmə müsabiqəsində yuxarıda bəhs olunan meyarlara aid qiymət

dərəcələri aşağıdakı kimidir:

| Hüquq biliyi | Sual-cavab | Fakt biliyi | Üslub, davranış | Təşkil, vaxt istif. |
|---|---|---|---|---|
| 15-30 | 12-25 | 10-20 | 8-15 | 5-10 |
| Zəif: 15-19<br>Orta: 20-25<br>Güclü: 26-30 | Zəif: 12-15<br>Orta: 16-21<br>Güclü: 22-25 | Zəif: 10-12<br>Orta: 13-17<br>Güclü: 18-20 | Zəif: 8-10<br>Orta: 11-13<br>Güclü: 14-15 | Zəif: 5-6<br>Orta: 7-8<br>Güclü: 9-10 |

Göründüyü kimi intervallar meyarın əhəmiyyətinə görə dəyişir.

Qiymətləndirmə prosesini başa düşməyə çalışaq. Əvvəla, həm hər çıxışçı üçün ayrı-ayrı kriteriyalar üzrə balları yazıb yekunda toplaya, həm də kriteriyaları yalnız ümumi nəzərə alıb sadəcə hər fərd üçün birbaşa yekun bal yaza bilərsiniz. Əsas olan hər çıxışçı üçün yekun baldır və yalnız yekun balınız hesablamalarda nəzərə alınır.

- Bu müsabiqənin bir şifahi raundunda hər çıxışçı minimum 50, maksimum 100 bal ala bilər. Müsabiqənin qiymət kağızına əsasən təxmini demək olar ki, bir nəfərin 50-62 bal alması onun zəif, 63-85 orta, 86-100 olması güclü çıxışçı olması deməkdir. 95-100 bal çox yaxşı, müstəsna bilik və bacarığı olan çıxışçılara verilir. Beləcə, bir komanda minimum 100, maksimum 200 bal ala bilər (hər komandadan iki nəfər çıxış edir).

- Hər şeydən əvvəl hansı komandanın raundun qalibi olmasını hakim özü üçün qərar verməlidir. Fərdi ballar bu nəticəni təmin etməyə uyğun olmalıdır. Yəni hakim fərdi qiymətləri verərkən əmin olmalıdır ki, ballar toplandıqda daha yaxşı komanda qalib olsun.

- Daha sonra hakim raundda iştirak edənlərin necə sıralanacağına qərar verir. Ən yaxşı çıxışçını müəyyənləşdirmək və müsabiqənin ümumi vəziyyətinə əsasən onu qiymətləndirmək digər oralistlərə bal verməyə kömək olur. Məsələn, ərizəçi tərəfin hər iki oralisti cavabdehə nisbətdə aşkar yaxşıdırsa, onda rahatlıqla birinci və ikinci ərizəçinin ballarının birinci və ikinci cavabdehdən çox olacağını nəzərdə saxlayırsınız. Lakin bu həmişə belə olmaya bilər. Məsələn düşünürsüz ki, ərizəçi qalib olmalıdır, amma oralistləri belə sıralayardınız: I ərizəçi, II cavabdeh, II ərizəçi, I cavabdeh. Beləcə,

oralistlərə balları verərkən bu sıralamanı nəzərə alırsınız.

- Müsabiqənin ümumi səviyyəsini və şərtlərini faktor kimi əsas alarkən hər bir oralistin müsabiqə işindəki hüquqi məsələlərə hansı səviyyədə toxunduğunu, hüquq biliyi və bacarıqlarının nümayişi, digər raundlarda (hakim olmusunuzsa) gördüyünüz digər çıxışçılarla müqayisəsini nəzərə ala bilərsiniz. Yəni bir çıxışçının raundun ən yaxşısı olduğunu düşünməyiniz ona mümkün ən yuxarı balı verməli olduğunuz mənasını vermir. Yaxud sırf hesablayanda ərizəçi və ya cavabdeh qalib olsun deyə ixtiyari qeyri-proporsional ballar yazmaq da doğru deyil. Bu ballar komandaların və fərdlərin yekun sıralamasına təsir edir deyə diqqətli olmaq lazımdır.

Bir raunddakı dörd çıxışçıya müxtəlif ballar yazmaqla yuxarıdakılara daha praktiki izah verməyə çalışaq:

| **Ərizəçi** | | **Cavabdeh** | |
|---|---|---|---|
| I Ərizəçi | II Ərizəçi | I Cavabdeh | II Cavabdeh |
| 92 | 83 | 85 | 88 |

- I ərizəçinin 92 bal alması o deməkdir ki, o, həm raunddakı ən yaxşı çıxışçı olub, həm də obyektiv olaraq müsabiqənin hüquqi məsələləri ilə bağlı çox əla bilik və bacarıq nümayiş etdirib.

- II ərizəçinin təkcə I ərizçədən deyil, digər hər iki cavabdehdən aşağı bal alması onun bütün çıxışçılar arasında ən zəif olması deməkdir. Lakin 83 bala layiq olmaqla onun çıxışı ümumilikdə zəif olmayıb.

- I cavabdehin 85 bal alması onun komandasında ən zəif olsa da, II ərizəçidən daha yaxşı olması deməkdir.

- 88 bal II cavabdehin I ərizəçi qədər yaxşı çıxış etmədiyini göstərir. Raundun ikinci ən yaxşı çıxışçısı olmuşdur.

| **Ərizəçi** | **Cavabdeh** |
|---|---|
| **Toplam: 175** | **Toplam: 173** |

- Cəmi iki balla ərizəçinin qalib olması komandalar arasında rəqabətin çox

güclü olduğunu və hakim üçün hansı komandanın qalib olmasına çətinliklə qərar verildiyini göstərir. İki bal fərqlə hakim onu nəzərdə tutur ki, Cavabdeh qalib olmağa çox yaxın idi.

- Fərdi ballardan görünür ki, I ərizəçinin çox güclü olması qalibiyyəti ərizəçiyə qazandırıb. Cavabdeh çıxışçılar yaxşı olsalar da, onların heç birinin I ərizəçi ilə bilik və bacarıq fərqini kifayət qədər bağlamaması azca fərqlə onları raundun məğlub tərəfi edib. İkinci ərizəçinin də çox zəif olmaması qalibiyyətin Ərizəçi komandada qalması ilə nəticələnib.

Bir komandanın digərindən xeyli zəif olduğu başqa bir ssenariyə baxaq:

| **Ərizəçi** | | **Cavabdeh** | |
|---|---|---|---|
| I Ərizəçi | II Ərizəçi | I Cavabdeh | II Cavabdeh |
| 59 | 63 | 83 | 81 |

- Ərizəçi komanda üzvlərinin bir-birinə yaxın bu balları alması onların hər birinin zəif çıxış etməsi deməkdir. Belə bal aralığı zəif çıxışçılar üçün nəzərdə tutulur. Onların ümumi hüquq biliyi, əsas hüquq məsələlərini qavrayışı xeyli zəif olur.

- 59 bal almış I ərizəçi necəsə bir təhər aruqmentlərini çatdırıb və bəzi mənbələrə istinad edə bilib. Bir növ onun sadəcə əziyyəti qiymətləndirilib. İkinci ərizəçi isə ondan azca yaxşı çıxış edib.

- Cavabdehin hər bir üzvünün tərəf müqabillərindən ortalama 20 baldan çox bal alması onların açıq-aşkar üstün olduqlarını göstərir.

- Ümumi olaraq hər biri yaxşı və orta səviyyəli çıxışçılardır. Amma çıxışlarındakı bəzi mühüm çatışmazlıqlar onların daha yuxarı bal almağa imkan verməyib. I cavabdeh II cavabdehə nisbətən azca yaxşı çıxış edib.

| **Ərizəçi** | **Cavabdeh** |
|---|---|
| **Toplam: 122** | **Toplam: 164** |

- Ərizəçinin hər iki üzvünün zəif olması komandanın balının da cavabdehə nisbətdə xeyli zəif olmasına və bal fərqinin çox olmasın səbəb olub. Beləcə

cavabdeh raundun aşkar qalibi olub.

## 4.4. Rəy və təkliflər

Qiymətləndirmə bitdikdən sonra komandalar zala dəvət edilir və hakimlər onların çıxışları üzrə rəy və təkliflərini (ing. *feedback*) verirlər. Konstruktiv rəy və təkliflər müsabiqə iştirakçılarına zəif tərəflərini müəyyən etməyə, hüquqi əsaslandırma və müdafiə bacarıqlarını yaxşıladırmağa və ümumi çıxışlarını təkmilləşdirməyə kömək etmək üçün çox əhəmiyyətlidir. Mənalı rəylər müsabiqəni həm də pozitiv və faydalı öyrənmə mühitinə çevirir.

Nəzərə alın ki, əksər müsabiqələr hakimlərə maddi hüquqi rəy və təkliflər verməyi qadağan edir. Yəni rəy və təkliflər, adətən, arqumentasiya üslubu, çıxışın idarə və təşkil edilməsi, mənbələrdən istifadə, təhlil yanaşması, kommunikasiya kimi bacarıqlarla bağlı olmalıdır. Rəy və təklifləriniz üçün aşağıdakı tövsiyələri nəzərə ala bilərsiniz:

- **İştirakçının vəziyyətini başa düşün**. Rəy verərkən iştirakçının üzləşdiyi çətinlikləri və mümkün emosional vəziyyətini nəzərə alın. Belə anlayışlı yanaşma ilə rəyinizi iştirakçıya mənalı təsir bağışlayacaq şəkildə effektiv çatdırmağa nail ola bilərsiniz. Məsələn, çıxışı ərzində hansısa hüquqi konsepsiya üzrə iştirakçı çətinlik çəkib. Təkcə yanlış təhlil aparıldığını bildirmək əvəzinə hakim konsepsiyanın mürəkkəb olduğunu bildirə və gələcəkdə təhlili necə təkmilləşdirməklə bağlı tövsiyələrini deyə bilər.

- **Spesifik və yön verə biləcək rəy verin**. Dəyərli rəy vermək üçün mümkün qədər xüsusi və inkişaf üçün hansı addımların atılmalı olduğu barədə təkliflər verin. Məsələn, "*arqumentinizi yaxşı əsaslandırmadınız*" demək əvəzinə "*iddialarınızı daha yaxşı strukturlaşdırsaydınız və dəlillərinizi dəstəkləmək üçün xüsusi nümunələr gətirsəydiniz arqumentiniz daha anlaşıqlı olardı.*" Yaxud "*təkzibiniz təkzibə oxşamırdı*" demək əvəzinə deyə bilərsiniz ki, "*təkzibdə yeni arqumentlər gətirmək əvəzinə məhz cavabdehin əsas dəlillərini təkzib etməyiniz lazım idi.*"

- **Aydın dil işlədin**. Rəylərinizi aydın və müxtəsər, iştirakçıların asan başa düşəcəyi və müvafiq addım ata biləcəyi dillə verin. İştirakçıya anlaşılmaz və ya uzaq olan hüquqi jarqon və ya texniki terminologiya istifadə etməkdən

çəkinin.

- **Təqdir və tənqidi balanslaşdırın**. İştirakçının təkmilləşdirməli olduğu tərəflərini qeyd edərkən güclü və ya yaxşı olduğu tərəfləri də qeyd etməyə çalışın. Belə balanslı yanaşma iştirakçıya özünü inkişaf etdirmək üçün inam və motivasiya verir. Məsələn: "*Təqdimatınız çox yaxşı idi, xüsusən də hüquq qaydalarını bir-bir aydın izah etməyiniz. Amma arqumentləriniz üçün daha konkret mənbələrə istinad etsəydiniz daha yaxşı olardı.*"

# 5. PEŞƏKAR ETİKA

## 5.1. Peşəkar etika haqqında

Hüquq sisteminin düzgünlüyünü və etibarını qorumaq üçün bu peşədə etika böyük əhəmiyyət daşıyır. Ədalətli və tərəfsiz qiymətləndirmələr etmək üçün məhkəmə müsabiqələrindəki hakimlər də bu etik prinsiplərə riayət etməkdən məsuldurlar. Müsabiqə hakimləri üçün əsas etik prinsiplərə tərəfsizlik, qərəzsizlik, maraqlar münaqişəsindən çəkinmək, düzgünlük və məxfilik kimi prinsiplər daxildir.

Hakimlər əmin olmalıdır ki, müsabiqə işinə yanaşmalarından, iştirakçının arqumentasiyası ilə razılaşmaqlarından və iştirakçıların kimliyindən asılı olmayaraq bütün iştirakçılara ədalətlə və tərəfsiz davranırlar. Qiymətlən-dirmədə iştirakçıların hüquqi əsaslandırma və müdafiə bacarıqları əsas alınmalıdır. İştirakçıların müsabiqədə irəliləyişi hakimlərin qiymətləndirməsindən asılıdır deyə hakimlərdən etik prinsiplərə riayət etmək gözlənilir.

## 5.2. Hakimlikdə tərəfsizlik

Tərəfsizlik iştirakçılarla ədalətli davranmaqdır. Tərəfsizlik qərarların sırf irəli sürülən arqumentlər əsasında verilməsini təmin etməklə iştirakçıları qiymətləndirərkən neytral və qərəzsiz qalmaqdır. Məsələn, hakim şəxsi inancı və ya tanışlığına görə bir komandaya tərəfli olması müsabiqənin ədalətli olmasına xələl gətirə və bütün iştirakçıların təcrübəsinə mənfi təsir göstərə bilər. Hakim iştirakçılarla sosiallaşmaq, yaxud konkret komanda ilə xüsusi münasibət saxlamaq, *ex parte*, yəni müsabiqədən kənar əlaqədə olmaq, hədiyyə qəbul etmək kimi tərəfsizliyini şübhə altına alan hərəkətlərdən çəkinməlidir.

Eyni zamanda hakim iştirakçılarla əvvəlki münasibət, iştirakçının kimliyini, universitetini bilmək, mübahisələndirilən məsələlərlə bağlı şəxsi inancları kimi qərəz yarada biləcək faktorlardan  xəbərdar olmalıdır. Bu zaman hakim təşkilatçılara belə maraqlar münaqişəsini bəyan etməli və zəruridirsə, iştirakçının raundlarında hakimlikdən imtina etməlidir.

Müsabiqələrdə, xüsusən kiçik auditoriyası olan müsabiqələrdə hakimlər qərəz iddiaları ilə üzləşə bilərlər. Bu zaman hakim şəffaf, sakit və peşəkar davranmalı, narahatlığa səbəb olan məsələni aydınlaşdırmalı və zəruridirsə, müvafiq raundlar üzrə hakimlikdən çəkilməlidirlər. Lakin hakimlə iştirakçı arasında istənilən tanışlıq əlaqəsi maraqlar münaqişəsi yaratmır deyə hər bir məsələ barədə mövcud hallar ayrıca dəyərləndirilməklə təşkilatçılar tərəfindən qərar verilir.

## 5.3. Məxfilik

Hakim təşkilatçıların onunla məxfi olaraq paylaşdıqlarını gizli saxlamalıdır. Buna xüsusən müsabiqə işi barədə hüquqi məsələlərin təhlil olunduğu materiallar, habelə iştirakçılara aid digər materiallar daxildir. Belə materialların gizli saxlanılmaması, paylaşılması, ya da hansısa komanda ilə paylaşılması müsabiqə prosesinin pozulması ilə nəticələnir. Hakim raundlar zamanı da belə materialların açıqda qalmamasına əmin olmalıdır.

Hakimlər həmkarları ilə apardıqları müzakirələrin də məxfiliyini qorumalıdır. Bu prosesdə hakimlər hər şeyi nəzərə aldıqlarından əmin olmaq üçün iştirakçıların zəif və güclü tərəflərini səmimi müzakirə etməli olur. Belə müzakirənin məxfiliyinin pozulması hakimlərin mübahisə mövzusu olmasına yol aça bilər. Hansısa iştirakçının səviyyəsi barədə müzakirəni, qiymətləndirmə prosesini, komandalar arasındakı müqayisəni ətrafla paylaşmaq da müsabiqə gedişatını poza, iştirakçıları ruhdan sala bilər.

## 5.4. Peşəkar davranış

Məhkəmə müsabiqələrində peşəkar davranış elementlərinə özünü peşəkar aparmağı, iştirakçılara hörmət və nəzakətlə davranmağı, etik standartlara riayət etməyi, obyektivliyi aid etmək olar. Raundlarda hakimlərdən gözlənilir ki, onlar adekvat geyimdə olsunlar, peşəkar dil və tondan istifadə etsinlər, sakit və

soyuqqanlı davransınlar. Nəzərə almaq lazımdır ki, indiki iştirakçılar gələcəyin hüquqşünaslarıdır və hakim onlar üçün nümunədir.

Hakim iştirakçılar, həmkarları və təşkilatçılarla hörmət göstərməklə kommunikasiya qurmalı, iştirakçıların çıxışlarını diqqətlə dinləməli, maraqsızlıq göstərməməli, aşağılayıcı dillə danışmamalıdır. Məhkəmə müsabiqəsində çıxış etmək xeyli stresli prosesdir və iştirakçılar hakimlərlə söhbət zamanı özündən çıxa, yersiz ifadələr işlədə bilərlər. Hakim belə emosional reaksiyaların üzərinə getməməli, dava və ya polemika axtarmamalı, soyuqqanlı davranmalı və bunu qiymətləndirmədə nəzərə almağı düşünməlidir. O cümlədən sualları iştirakçının rəqibi kimi vermək yox, obyektiv üçüncü tərəf kimi səmimi mövqe öyrənirmiş kimi soruşmaq lazımdır.